Xalqın qəzeti!

# Xalq qəzeti

№ 177 (30581) 20 avqust 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Azərbaycan və Rusiya liderləri Bakıda ikitərəfli gündəliyi və regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.

# Azərbaycan–Rusiya çoxyönlü strateji tərəfdaşlığının yeni hədəfləri

## Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində Rusiya Prezidenti Vladimir Putinlə şam ediblər



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 18-də Azərbaycana dövlət səfərinə gəlib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində Rusiya Prezidenti Vladimir Putinlə şam ediblər.



### Rusiya Prezidenti Vladimir Putinin rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasında dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rusiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Rusiya Prezidentinə raport verdi.

Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər birgə foto çəkdirdilər.

## "Azərbaycanın regionda artan əhəmiyyəti nəzərə alınmalıdır"

Səhifə ⇨ 6

## 7 ayda ÜDM istehsalı 4,5 faiz artıb



Səhifə ⇨ 7

## Zəngin mədəni irsimiz turizmin inkişaf qaynağıdır



Səhifə ⇨ 10

## Erməni cəmiyyəti ümidsizlik, çaşqınlıq və böhran girdabında



Səhifə ⇨ 8

# Azərbaycan və Rusiya prezidentlərinin məhdud tərkibdə görüşü

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü keçirilib.**



**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Vladimir Vladimiroviç, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu il artıq iki dəfə görüşmüşük. Bu gün dövlət səfəri çərçivəsində təmaslarımızı davam etdiririk. Mahiyyət etibarilə artıq müzakirələrə dünəndən başlamışıq. Həm ikitərəfli gündəlik, həm də regional təhlükəsizlik ilə bağlı mühüm məsələlər üzrə geniş fikir mübadiləsi apardıq. Bu gün məhdud formatda və geniş formatda da davam edəcəyik.

Qeyd etmək istərdim ki, ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq. 2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk. Ona görə də bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin üçün xoş, həm də münasibətlərimiz baxımından faydalı olacaq.

Bir daha xoş gəlmisiniz.

**Sonra çıxış edən Prezident Vladimir Putin dedi:**

– Hörmətli İlham Heydər oğlu, çox sağ olun.

İlk növbədə, dəvətə görə sağ olun. Biz Sizinlə bu səfəri çoxdan razılaşdırmışdıq və Bakıda olmağıma, bu şəhərin gözəlliyinə bir daha tamaşa etməyimə çox şadam. Əmin oldum ki, Siz və xanımınız onun inkişafına böyük diqqət yetirirsiniz. Bu, göz qabağındadır. Şəhər inkişaf edir, uğurla inkişaf edir, sözsüz ki, regionun oazisinə çevrilir.

Münasibətlərimiz hələ 2022-ci ilin əvvəlində Sizinlə imzaladığımız Bəyannamə əsasında inkişaf edir, uğurla yerinə yetirilir. Bu ilin aprelində Sizin Moskvaya səfəriniz zamanı ikitərəfli münasibətlərimizin inkişafına yaxşı təkan verilib.

İqtisadi-ticari əlaqələr uğurla inkişaf edir. Rusiyada keçirilən əvvəlki görüşümüzdə Siz mənə demişdiniz və Sizinlə razıyam ki, 4 milyard dollardan bir az çox yaxşı rəqəmdir. Bu, yaxşı rəqəmdir, amma bizim imkanlarımızın potensialını əks etdirmir. Həqiqətən, burada yalnız energetika, sənaye kooperasiyası, nəqliyyat, logistika, yüngül sənayedən danışmaq olmaz. Bizim birgə fəaliyyətimizin istiqamətləri çoxdur.

Azərbaycan iqtisadiyyatına qoyulan dörd milyarddan artıq birbaşa investisiyalar da pis göstərici deyil. Azərbaycanda Rusiya kapitalı ilə 1270-dən çox müəssisə fəaliyyət göstərir, sözsüz ki, bu da son hədd deyil.

Humanitar əlaqələrə gəldikdə, biz onlara çox böyük əhəmiyyət veririk və rus dilinin inkişafına göstərdiyiniz diqqətə görə Sizə minnətdarıq. Azərbaycanda rus dilində 300 məktəb, bizim aparıcı ali təhsil müəssisələrinin filialları fəaliyyət göstərir. Minlərlə azərbaycanlı gənc Rusiya Federasiyasının aparıcı universitetlərində təhsil alır və biz bu qarşılıqlı fəaliyyəti genişləndirməyə hazırıq.

Hökumətlərarası komissiya işləyir. Elə bu yaxınlarda – gərək ki, 10 gün əvvəl burada, Bakıda hökumətlərarası komissiyanın növbəti iclası keçirildi. O, uğurla fəaliyyət göstərir.

Yeri gəlmişkən, bilirəm ki, bu ilin iyununda Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçirilib. Bu tədbirin təşkilinə görə Sizə minnətdaram.

Əlbəttə, dünən Sizinlə bu mövzuya toxunduq və bu gün davam etdirəcəyik. Məsələ Cənubi Qafqazda vəziyyətin nizamlanmasına aiddir.

Aydındır və hamıya yaxşı məlumdur ki, Rusiya, o cümlədən Ukrayna istiqamətində böhranlarla üzləşir, amma Rusiyanın Cənubi Qafqazda vəziyyətdə tarixi iştirakı son bir neçə ildə bizə bu hadisələrə cəlb olunmağın vacibliyini diktə edir, əlbəttə, tərəflərin lazım bildiyi hissədə.

Əgər biz Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq üçün nəsə edə biləriksə, vəziyyəti delimitasiya, sərhədlərin demarkasiyasına gətirib çıxararıqsa, Sizinlə dəfələrlə qeyd etdiyimiz kimi, müvafiq logistika istiqamətlərinin və ya iqtisadiyyatın qarşısında maneələri aradan qaldırarıqsa, buna çox şad olardıq.

Əlbəttə, Azərbaycana səfərdən sonra baş nazir Paşinyanla əlaqə saxlayacağam və ona danışıqlarımızın nəticələrindən bəhs edəcəyəm.

Bilirəm ki, Azərbaycan tam nizamlanma ilə bağlı bütün prosedurların başa çatmasına istiqamətlənib, bu, mənə yaxşı məlumdur. Bu barədə danışacağıq.

Yekunda dəvətə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Əminəm ki, bu, çox faydalı diskussiya olacaq və görürəm ki, şəhərdə vəziyyət də çox əlverişlidir. Biz Bakını sevirik. Şəhər gözəldir və ən başlıcası, bir çox başqa böyük yaşayış məntəqələrinin qibtə edəcəyi səviyyədə inkişaf edir.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# İki ölkə liderlərinin geniş tərkibdə görüşü

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olub.**





**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Vladimir Vladimiroviç. Hörmətli nümayəndə heyətlərinin üzvləri. Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram.

Dünən və bu gün artıq ikitərəfli gündəliyi nəzərdən keçirdik. Qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etdik və indi işimizi geniş tərkibdə davam etdiririk.

İlk növbədə, Sizi bir daha salamlamaq istərdim. Siz birinci dəfə deyil ki, Azərbaycana gəlirsiniz, amma ilk dəfədir dövlət səfəri edirsiniz və bu səfər ikitərəfli münasibətlərimiz üçün müstəsna əhəmiyyətə malikdir.

Bu gün Sizinlə artıq fikir mübadiləsi apardıq, dost, qonşu və müttəfiq olan ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə etdik. Bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Bu, çox mətləblərdən xəbər verir. Yəni qarşılıqlı fəaliyyətin müzakirəsi üçün mövzular çoxdur və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir.

Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq.

Bir daha xoş gəlmisiniz.

**Prezident Vladimir Putin çıxış edərək dedi:**

– Dəvətə görə çox sağ olun İlham Heydər oğlu. Siz də artıq qeyd etdiyiniz kimi, bizim hər iki tərəfdən geniş nümayəndə heyətimiz var. Rusiya Federasiyası Hökuməti demək olar ki, tam heyətdə buradadır.



Artıq Sizinlə qeyd etdik və xatırladıq ki, bu yaxınlarda, on gün əvvəl hökumətlərarası komissiyanın iclasında münasibətlərimizin inkişaf etdiyi bildirildi – təkcə bildirilmədi, həm də qeyd edildi ki, biz 2022-ci ilin müvafiq Bəyannaməsində təsbit olunmuş və Sizin cari ilin aprelində səfəriniz zamanı əldə olunmuş razılaşmaları tam həcmdə yerinə yetiririk.

Belə geniş tərkibdə iş bizə ən yaxın perspektivdə gələcəyə yönəlmiş addımları müəyyən etməyə imkan verir. Hərçənd, əvvəlki görüşümüz "məhdud tərkibdə" adlansa da tamamilə prioritet xarakterli bir sıra məsələlər tam nəzərdən keçirildi.

Biz hələ müvafiq sənədləri imzalamalıyıq, həmkarlar isə dünən axşam, bizim də Sizinlə etdiyimiz kimi, qeyri-rəsmi şəraitdə, bu gün isə artıq gün ərzində öz aralarında ünsiyyət qurmaq və ən yaxın perspektiv üçün addımları müəyyənləşdirmək imkanı əldə etdilər.

Beləliklə, Sizə təşəkkürümü bildirirəm. Yəqin ki, hökumətlərarası komissiyanın rəhbərlərinə söz vermək olar.

**Prezident İlham Əliyev:** Sağ olun.

# Dövlətlər arasında imzalanmış sənədlərin mübadiləsi

**Avqustun 19-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə mübadiləsi mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarının Birgə Bəyanatını qəbul etdilər.

"Azərbaycan Respublikasının ixracın və investisiyaların təşviqi Agentliyi - AZPROMO ilə "Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kirill Dmitriyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqlim dəyişmələri və aşağı karbonlu inkişaf üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov mübadilə etdilər.



"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Federal Əmək və Məşğulluq Xidməti (Rusiya Federasiyası) arasında əməyin təftişi məsələləri üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq Memorandumu"nu Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Rusiya Federasiyasının Əmək və Məşğulluq Federal Xidmətinin rəhbəri Mixail İvankov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyası İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət Federal Xidmətinin rəhbəri Anna Popova mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin rəhbəri Sergey Dankvert mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko mübadilə etdilər.

# Liderlərin mətbuata bəyanatlarla çıxışları

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Əziz qonaqlarımızı bir daha səmimi-qəlbdən salamlayıram. Rusiya Federasiyasının Prezidenti Azərbaycanda dövlət səfərindədir. Səfər xüsusi xarakter daşıyır. Bizim ən yüksək səviyyədə görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu il iki dəfə - bir dəfə Moskvada, bir dəfə isə beynəlxalq tədbir çərçivəsində görüşmüşük. Amma, əlbəttə ki, dövlət səfərinin formatı və xarakteri xüsusi əhəmiyyətə malikdir, belə demək mümkünsə, həm də dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Bu gün qəbul edilən sənədlər, ilk növbədə, prezidentlərin Birgə Bəyanatı daxil olmaqla, münasibətlərimizin dostluq və müttəfiqlik xarakterini bir daha təsdiqləyir.

2022-ci ilin fevralında imzalanmış qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin müddəaları uğurla həyata keçirilir. Ölkələrimiz müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir.

Bu gün dövlətlərarası münasibətlərin geniş spektrini ətraflı müzakirə etdik. Hətta nümayəndə heyətlərinin tərkibinə nəzər salmaq kifayətdir ki, dövlətlərarası strukturların fəaliyyət sferasının, əslində, nə qədər geniş olduğunu görəsən.

Biz iqtisadi-ticari münasibətlərlə bağlı məsələləri detallı şəkildə təhlil etdik. Keçən il və bu ilin 6 ayında əmtəə dövriyyəsinin artımı əməkdaşlığın böyük potensialından xəbər verir. Ötən il biz 4 milyard dollar həddini adladıq və bunun son hədd olmadığı barədə fikir mübadiləsi apardıq.

Humanitar əməkdaşlıq sahəsinə həmişə xüsusi diqqət yetirilir. Azərbaycanda rus dilində tədris aparılan 324 məktəb var, onlarda 160 min şagird təhsil alır. 800 mindən çox şagird rus dilini ikinci dil kimi öyrənir. Azərbaycanın 26 ali təhsil müəssisəsində 15 mindən artıq tələbənin təhsil aldığı rus dili bölmələri var.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu gün, həmçinin təhsil sahəsində münasibətlərin inkişafı məsələsini müzakirə etdik.

Biz, eyni zamanda, məhdud formatda keçirilən görüşdə regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Ötən ilin sentyabrından sonra regionda tamamilə yeni şərait yaranıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır.

Biz dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları, "Şimal–Cənub" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələləri ətraflı müzakirə etdik.

Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal–Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox – 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır. Ümidvaram ki, hazırkı şəraitdə Rusiya və Azərbaycan, həmçinin bu dəhlizin digər iştirakçıları birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər.

Bir daha deməliyəm ki, biz bu il həmin dəmir yolu sahəsinin tələb edilən ötürücülük qabiliyyətinə malik olması üçün modernləşdirilməsi məqsədilə təxminən 120 milyon dollar ekvivalentində vəsait nəzərdə tutmuşuq.

Rusiya və Azərbaycanın müxtəlif şəhərləri arasında hər gün 20 reys həyata keçirilir. Deməliyəm ki, hətta Sovet İttifaqı dövründə bu qədər qarşılıqlı reyslər olmayıb. Eyni zamanda, onlar Azərbaycan və Rusiya daşıyıcıları arasında bərabər bölünüb. Bu, məhz ondan xəbər verir ki, insanlar arasında təmaslar mütəmadi xarakter daşıyır. Bu gün, həmçinin ölkələrimizin vətəndaşları arasında qarşılıqlı səyahətlərin artdığını qeyd etdik.

Energetika sferasında həm neft-qaz sektorunda, həm də elektrik enerjisi sahəsində vəziyyəti geniş təhlil etdik. Biz bu istiqamətdə fəal işləyirik və əminəm ki, gələcəkdə də fəaliyyətimizi əlaqələndirəcəyik.

Həmçinin hər iki tərəfi narahat edən məsələlər, məhz Xəzərdə ekoloji vəziyyət, onun fəlakətli dayazlaşması üzrə fikir mübadiləsi apardıq. Danışıqlar apardığımız otağın pəncərəsindən Vladimir Vladimiroviçə hələ iki il əvvəl suyun altında olan, bu gün isə artıq bir metr yuxarıya çıxan qayaları göstərdim. Biz bunu Abşeron yarımadasının bütün sahili boyu, həm də Azərbaycanın bütün sahilyanı ərazilərində müşahidə edirik. Mümkün ekoloji fəlakətin qarşısını almaq üçün biz birgə səylərlə vəziyyəti təhlil etmək və həm ikitərəfli, həm də beştərəfli formatda həll yollarını müəyyənləşdirmək barədə razılığa gəldik. Yəni, bu ekoloji fəlakətin meydana çıxmasını artıq açıq-aşkar görürük.

Mən Azərbaycanın COP29 iqlim konfransında ev sahibi qismində namizədliyini dəstəklədiyinə görə Vladimir Vladimiroviçə və Rusiya tərəfinə təşəkkürümü bildirdim. Rusiyanın dəstəyi müstəsna dərəcədə mühümdür və biz hazırda ikitərəfli formatda da bu iqlim konfransına hazırlıqla bağlı məsələlər üzərində işləyirik.

Vladimir Vladimiroviç, mənim dəvətimi qəbul etdiyinizə və dövlət səfəri ilə Azərbaycana gəldiyinizə görə bir daha Sizə təşəkkürümü bildirmək istərdim. Şübhəsiz ki, bu səfər tarixi xarakter daşıyır, ölkələrimiz arasında dostluq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə mühüm töhfə verəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Rusiya Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Vladimir Putinin bəyanatı

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar, həmkarlar.

Xanımlar və cənablar.

Azərbaycan Respublikasına dövlət səfərinə dəvətə görə İlham Heydər oğluna bir daha təşəkkür etmək istərdim. Qonaqpərvər Azərbaycan torpağında olmaq, Sizin rəhbərliyinizlə inkişaf edən Bakının mənzərələrini seyr etmək bizim üçün çox xoşdur.

Vurğulamaq istərdim ki, Rusiya Azərbaycanla çoxplanlı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Bu münasibətlərin əsasını bərabərlik, bir-birinin maraqlarını nəzərə almaq və əlbəttə, əsrlər boyu xalqlarımızı birləşdirən sıx insani və mədəni bağlar təşkil edir.

Dünən və bu gün keçirilən danışıqlar əsnasında Sizə görüşümüzün, birgə işimizin başlanması üçün yaradılan səmimi ailə ab-havasına görə təşəkkürümü bildirmək istəyirəm. Bu gün də, sözün əsl mənasında, həmin şəraitdə işgüzar təmaslarımızı davam etdirdik. Bu gün aparılan danışıqlar zamanı biz qarşılıqlı fəaliyyətimizə dair məsələlərin ən geniş spektrini ətraflı, işgüzar şəraitdə müzakirə etdik.

Qəbul edilən Birgə Bəyanatda ikitərəfli əlaqələrin bütün kompleksi üzrə gələcək dinamik inkişafın yeni genişmiqyaslı vəzifələri qarşıya qoyuldu. Bu gün imzalanan sənədlər də onların həllinə kömək edəcək. İndicə bunun necə baş verdiyinin şahidi oldunuz.

Danışıqlarda qarşılıqlı faydalı iqtisadi-ticari əməkdaşlığın inkişafına diqqət yetirildi. Bu, qanunauyğundur, çünki Rusiya və Azərbaycan bir-biri üçün mühüm iqtisadi tərəfdaşlardır. Artıq qeyd olundu, mən bu barədə bu gün görüşümüzün əvvəlində də dedim - dörd milyard dollardan bir az çox dövriyyə var və ona artıq bu ilin birinci yarısında 17 faiz əlavə olunub. Azərbaycan iqtisadiyyatına 4 milyarddan çox birbaşa investisiyalar qoyulub. Əlbəttə, Azərbaycan bazarındakı 1300 müəssisə ondan xəbər verir ki, bizdə fəaliyyət müsbət istiqamətdə inkişaf edir və yaxşı perspektivlərə malikdir.

Azərbaycan Prezidenti elə indicə bizim fəaliyyət istiqamətlərimizdən danışdı. Onların hər biri bizim üçün real strateji əhəmiyyətə malikdir.

Hökumətlərarası Komissiyadan olan həmkarlar əsas iqtisadi qarşılıqlı fəaliyyət məsələlərini daim diqqət mərkəzində saxlayırlar. Komissiyanın bizim səfərimiz ərəfəsində Bakıda keçirilən növbəti iclası çox məhsuldar olub.

Artıq dediyim kimi, Rusiya ən iri investorlar sırasına daxildir və biz buna yalnız sevinirik.

Azərbaycan bazarında şirkətlərimiz özünü yetərincə rahat hiss edir. Artıq xatırladıldı ki, burada həm "LUKOYL", həm yığılma istehsalını təşkil edən "KamAZ", həm də "Sollers", "UAZ" var. Onlar uğurla fəaliyyət göstərir və inkişaf perspektivlərinə malikdir. Biz onların işinə yaradılan şəraitə görə Azərbaycan hakimiyyətinə minnətdarıq.

"Transmaşholdinq" fevral ayında Bakı metropoliteni üçün Rusiya vaqonlarının böyük partiyasının istehsalına dair növbəti müqavilə bağlayıb. Ümidvaram ki, bu qatarlardan istifadə edənlər də razı qalacaqlar.

Bizim "Şimal–Cənub" layihəsinin reallaşdırılması üzrə birgə planlarımızı da xüsusi qeyd edərdim. Bu, bizə Hind okeanının sahillərinə çıxmağa və bu marşrutları qarşılıqlı fayda və qarşılıqlı maraq kontekstində istifadə etməyə imkan verəcək.

Humanitar əlaqələr fəal şəkildə genişlənir. İyunda Azərbaycanda Rusiya Mədəniyyəti Günləri uğurla keçirildi, bu çərçivədə sərgilər, konsertlər, teatr tamaşaları, başqa parlaq mədəniyyət hadisələri oldu.

Xoş ənənəyə uyğun olaraq, azərbaycanlı dostlarımızı sentyabrda onuncu - yubiley Sankt-Peterburq Mədəniyyət Forumuna dəvət edirik.

Azərbaycanda rus dilindən hər yerdə və sərbəst istifadə olunur. Hiss edirik ki, Azərbaycan Respublikasının rəhbərliyi bu tendensiyanı hərtərəfli dəstəkləyir. İlham Heydər oğlu, rus dilinə göstərilən bu diqqətə görə Sizə minnətdarıq. Ölkədə tədrisi rus dilində aparılan 300-dən çox məktəb, həmçinin Moskva Dövlət Universitetinin, Seçenov adına Moskva Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Hazırda, – biz elə indicə bunu geniş tərkibdə görüş əsnasında müzakirə etdik, – Bakıda Rusiya–Azərbaycan Universitetinin yaradılması təşəbbüsü nəzərdən keçirilir. Azərbaycan Prezidenti bu ideyanı dəstəkləyib. Ümidvaram ki, biz onu kifayət qədər tez həyata keçirəcəyik. Bizim tərəfimizdən Sankt-Peterburq Dövlət Universiteti layihəyə qoşulmağa hazırdır.

Rusiyada, həmçinin Azərbaycan üçün yüksəkixtisaslı kadrların hazırlanması üzrə çox iş görülür. Hazırda Rusiyanın ali məktəblərində 8 minə yaxın azərbaycanlı gənc təhsil alır, o cümlədən onların mindən çoxu Rusiya federal büdcəsi hesabına oxuyur. Ölkələrimizdə sovet xalqının Böyük Vətən müharibəsində igidliyini hörmətlə anırlar. Xatırlayırlar ki, bizim atalarımız, babalarımız və ulu babalarımız birlikdə ümumi Vətənimizi qoruyublar və dünyanın nasizmdən xilasına həlledici töhfə veriblər. İlham Heydər oğlu ilə razılığa gəldik ki, bizim Böyük Qələbəmizin qarşıdakı 80 illiyini geniş şəkildə qeyd edək.

Artıq dediyim kimi, danışıqlarda regional gündəliyə dair, təbii ki, Azərbaycanın Xəzər regionunda və Cənubi Qafqazda oynadığı rol nəzərə alınaraq, bir sıra məsələlər də müzakirə olunub.

Aktual beynəlxalq mövzulara da toxunulub. Xarici siyasətdə ölkələrimiz beynəlxalq hüququn aliliyi, suverenlik və daxili işlərə müdaxilə edilməməsi prinsiplərinə qətiyyətlə tərəfdardırlar.

Rusiya və Azərbaycan çoxtərəfli platformalar daxil olmaqla, həmçinin BMT və Müstəqil Dövlətlər Birliyində öz səylərini sıx əlaqələndirirlər. Bu ilin oktyabrında İlham Heydər oğlunu MDB Dövlət Başçıları Şurasının iclasında, həmçinin Kazanda keçiriləcək BRICS sammiti çərçivəsində "autriç" formatında görüşdə görməyə şad olacağıq.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin hazırkı vəziyyətinə də diqqət yetirdik. Vurğulayım ki, Rusiya gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək edəcək. Həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla, sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq.

Bizim mövqeyimiz ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və sabitlik bu regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqlarına tam şəkildə cavab verməlidir.

Sonda bir daha vurğulamaq istərdim ki, biz səfərin yekunlarından tamamilə məmnunuq. Əminəm ki, bu gün aparılan danışıqlar və əldə olunan razılaşmalar Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

# Prezidentlər "Bakı Ağ Şəhər"də

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Bakı Ağ Şəhər"də olublar.**



# Azərbaycan və Rusiya rəhbərləri Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında olublar.**



Dövlət başçılarına Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı barədə məlumat verən Bakı və Azərbaycan yepiskopu **Aleksiy** dedi:

– Hörmətli Vladimir Vladimiroviç, hörmətli İlham Heydər oğlu, sizi Bakı şəhərinin Kafedral kilsəsində salamlamağa şadam, bu, mənim üçün böyük şərəfdir. Üstəlik, bu gün İsa Peyğəmbərin mücəssəməsi günüdür.

Bu məbəd 2003-cü ildə azərbaycanlı mesenatların səyləri və Heydər Əlirza oğlu Əliyevin bilavasitə qayğısı ilə bərpa olunub və rəsmi olaraq açılıb. Bakı şəhərində məbədlərin bir çoxu Azərbaycan hökumətinin vəsaiti ilə bərpa edilib. Ona görə də Azərbaycanın bütün pravoslavları adından İlham Heydər oğluna təşəkkür etmək istəyirəm.

**Prezident Vladimir Putin:** Gözəldir. Sağ olun ki, dəstəkləyirsiniz.

**Prezident İlham Əliyev:** Bizim pravoslav vətəndaşlarımızın özlərini evlərindəki kimi hiss etmələrinə şadıq. Bu, hamının vahid dost ailə kimi yaşaması, dövlətimiz üçün böyük dəyərdir.

(ardı 4-cü səhifədə)

## Azərbaycan və Rusiya liderləri Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında



(əvvəli 3-cü səhifədə)

Həm xristian, həm müsəlman, həm də yəhudi bayramlarını birlikdə keçiririk. Odur ki, burada belə bir vəhdət var.

Bildirildi ki, Bakı yeparxiyasının mərkəzi - Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı və ya "Jen Mironosits" pravoslav kafedral kilsəsi 1909-cu ildə memar M.Verjbitskinin layihəsi əsasında rus üslubunda, məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı və ianələr hesabına inşa edilib. Kilsənin açılışında o dövrün görkəmli siyasi və din xadimləri iştirak ediblər.

Kommunist rejimi dövründə məbəddən anbar kimi istifadə olunub, bir müddət sonra isə idmançıların ixtiyarına verilib.

Məbədin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinin sərəncamına verilib və burada təmir-bərpa işləri aparılıb.

Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksiy Azərbaycana səfəri zamanı 2001-ci il mayın 27-də bu məbədi müqəddəs elan edib və ona baş kafedral kilsə statusu verib.

Azərbaycan və Rusiya prezidentləri kilsəyə xatirə hədiyyələri təqdim etdilər.



## Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Avqustun 19-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstəsi qoyulub.

## İlham Əliyevin adından Vladimir Putinin şərəfinə dövlət ziyafəti verilib



**Avqustun 19-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə dövlət ziyafəti verilib.**

Ziyafətdə Azərbaycanın və Rusiyanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.



## Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Şəhidlər xiyabanını ziyarət edib.**

Rusiya Prezidenti şəhidlərin xatirəsini anaraq "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

## Səfər başa çatıb



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri avqustun 19-da başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Prezidenti Vladimir Putini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**



# Milli Məclisə seçkilərə 11 gün qaldı

SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Məntəqələrimiz səsverməyə hazırdır

**Milli Məclisə seçkilər işğaldan azad edilmiş digər rayonlarımızın sakinləri kimi, kəlbəcərlilər üçün də xüsusilə əlamətdardır. Onların bir qismi ilk dəfə doğma yurdlarında, azad Kəlbəcərdə seçkilərdə iştirak etməyin qürurunu yaşayacaq. Bunun üçün hazırda sürətlə yenidən qurulan, bərpa edilən və yaxın gələcəkdə Böyük Qayıdışın növbəti ünvanına çevriləcək Kəlbəcərdə 2 seçki məntəqəsi fəaliyyət göstərir. Kəlbəcərlilərin seçki əhval-ruhiyyəsi, ümumilikdə seçkilərə hazırlıq və məntəqələrdə görülən işlər barədə məlumat almaq üçün 123 saylı Kəlbəcər dairə seçki komissiyasının (DSK) sədri Adil Murtuzayevlə həmsöhbət olduq:**

**– Adil müəllim, azad Kəlbəcərdə ilk parlament seçkiləri keçiriləcək. Seçki dairəsinin sədri və bir kəlbəcərli kimi hansı hissləri keçirirsiniz?**

– Əlbəttə ki, 2024-cü il fevralın 7-də keçirilmiş Prezident seçkiləri kimi, bu seçkilər də bütün kəlbəcərlilər üçün böyük tarixi-siyasi hadisədir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 20-də Qarabağda keçirilən lokal antiterror tədbirlərində qazandığı şanlı qələbələr nəticəsində bu gün Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. Bunun nəticəsidir ki, kəlbəcərlilər ilk dəfə işğaldan azad olunmuş doğma yurdlarında Milli Məclisə seçkilərə hazırlaşırlar. Uzun müddətdir123 saylı DSK-nın sədriyəm. Çox xoşbəxtəm ki, mənim tərcümeyi-halıma və ömür kitabıma bu iki seçkidə fəaliyyət göstərmək yazıldı. Bu, mənim üçün şərəfdir. Ona görə də məsuliyyətli və qürurverici işimizin öhdəsindən layiqincə gəlməyə çalışırıq.



**– Seçkilərə hazırlıq necə gedir?**

– Kəlbəcərlilər respublikamızın 40-dan artıq şəhər və rayonunda müvəqqəti məskunlaşıblar. Həmin ərazilərdə 65 seçki məntəqəmiz fəaliyyət göstərir. Qürurverici cidir ki, artıq Kəlbəcərin özündə də seçki prosesi həyata keçirilir, 63 və 64 saylı məntəqə seçki komissiyaları məhz orada yaradılıb. Hazırda məntəqələrin təchizatı və səsverməyə hazırlığı tam təmin edilib. Mərkəzi Seçki Komissiyasının Təqvim Planına uyğun olaraq seçkilərin azad, şəffaf və demokratik keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb. Məntəqələrin hamısında lazımi avadanlıq mövcuddur. Səsvermə kabinələri tam hazır vəziyyətə gətirilib, maarifləndirici materiallar lazımi yerlərə asılıb. Eləcə də komissiya üzvlərinin və müşahidəçilərin səsvermə günü öz vəzifələrini normal şəkildə yerinə yetirmələri üçün təlimata uyğun şərait yaradılıb. Bir sözlə, bütün məntəqələrimiz səsvermə gününə tam hazırdır.

Məlumat üçün bildirmək istəyirəm ki, 123 saylı dairə üzrə 55 413 seçici qeydiyyatdadır. Həmin seçicilərdən 735 nəfəri ilk dəfə səsvermədə iştirak edəcək.

Bildiyiniz kimi, Kəlbəcər uzunömürlülər diyarıdır. Ona görə də, yaşlı seçicilərimizin sayı kifayət qədər çoxdur. Qeydiyyatda olan 6 qadın seçicimizin yaşı 100-dən yuxarıdır. Ən yaşlı seçicimiz isə 2 saylı məntəqə üzrə qeydiyyatda olan 111 yaşlı Baxşalıyeva Xeyrənsə İsmayıl qızıdır.

**– Rayon sakinlərinin seçkilərlə bağlı fəallığını necə dəyərləndirirsiniz?**

– Çox yüksək. Faktlar da göstərir ki, 1 sentyabr seçkilərinə maraq böyükdür. Dairə üzrə 12 deputatlığa namizəd qeydə alınıb. Onlardan 1-i siyasi partiyanın namizədidir, digər 11 nəfər isə seçki mübarizəsinə öz təşəbbüsləri ilə qoşulub. Seçkilərin azad və demokratik şəkildə keçirilməsini təmin etmək üçün seçki prosesində müşahidəçi qismində iştirak etmək istəyənlərin də çoxsaylı müraciətlərinə müsbət cavab verilib. 567-i siyasi partiyalardan, 415-i öz təşəbbüsü ilə, həmçinin 9 nəfəri qeydə alınmış namizədin vəkili və ya səlahiyyətli nümayəndəsi olmaqla, ümumilikdə, 991 nəfər seçkilərdə müşahidəçi qismində iştirak edəcək. Üstəlik, beynəlxalq müşahidəçilər də dairə üzrə müxtəlif seçki məntəqələrində seçki prosesini izləyəcəklər. Yəni, seçkilərdə şəffaflığın təmin edilməsi üçün bütün şərait yaradılıb.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

## “Deputat yurdsevər və fəal vətəndaş olmalıdır”

**Tarixçi-alim, akademik Yaqub Mahmudov sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərinin əhəmiyyəti barədə “Seçki 2024” Müstəqil Media Mərkəzinin suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.**

**– Yaqub müəllim, növbədənkənar parlament seçkilərinin Azərbaycan üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Seçki mədəniyyətdir, həm dövlət, həm də millət, cəmiyyət üçün strateji məsələdir. Bir xalqın seçkilərdə iştirakı onun gələcək taleyinin müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Ona görə də istərdim ki, cavandan qocayadək hamı seçkilərdə fəal iştirak etsin. Milli Məclis çox mühüm orqandır və buna görə də parlament seçkiləri dövlət üçün strateji əhəmiyyət daşıyır. Xüsusilə indiki məqamda, dünyanın başının üstünü münaqişələrin aldığı bir dövrdə keçirilən seçkilər ikiqat məsuliyyət yaradır. Burada başqa bir məqam da odur ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanması bu seçkilərin əvvəlki seçkilərdən mənəvi cəhətdən üstünlüyünü artırır. Çünki ilk dəfədir ki, parlament seçkiləri bütün ölkəni əhatə edir. Bu, ərazi bütövlüyümüzün bərpasından sonra qazandığımız üstünlükdür.



**– Parlament seçkilərinin ölkədəki siyasi proseslərə təsiri barədə nə deyə bilərsiniz?**

– Seçkilərin özü böyük siyasi prosesdir. Bu prosesin yanında digər siyasi proseslər nisbətən sönük görünür. Lakin seçkilərin sabit, demokratik keçməsi qarşıdan gələn COP29 zamanı da Azərbaycanın əlini xeyli gücləndirəcək və ölkəmizin imicinə müsbət təsir göstərəcək. Bunun üçün də dövlətimiz xeyli işlər görüb. Görülən işləri qiymətləndirmək lazımdır.

**– Yeni parlamenti necə görmək istərdiniz?**

– Milli Məclisə seçilən deputat ilk növbədə vətənpərvər, fəal vətəndaş olmalıdır. Xeyli yeni namizəd görürəm. Dövlətimiz də onlara uğurlu təşviqat aparmaları üçün çox yaxşı şərait yaradıb. Bu, onu göstərir ki, dövlətimiz demokratik seçkilərin keçirilməsində, həmişə olduğu kimi, maraqlıdır. İnanıram ki, layiqli insanlar deputat kürsüsündə əyləşə biləcəklər. Əsas odur ki, fəaliyyətləri boyu xalqın, seçicilərin, dövlətin ümumi prinsiplərinə yaxından dəstək olsunlar. Çünki parlament xalqın bugününün və gələcəyinin güclü əsaslar üzərində qurulmasında mühüm rol oynayır. İstərdim ki, bizim yeni Milli Məclis də bu kriteriyalara cavab versin.

*Anar ƏLİ*
*XQ*

## Soydaşlarımızın diqqəti Vətənə yönəlib

**Britaniya Azərbaycan Cəmiyyətinin sədri Fərida Pənahova “Seçki 2024” Müstəqil Media Mərkəzinin suallarını cavablandırıb. Onunla müsahibəni təqdim edirik.**

**– Fərida xanım, sentyabrın 1-də Azərbaycan Milli Məclisinə seçkilər keçiriləcək. Uzaq İngiltərədə yaşasanız da, Azərbaycanla bağlılığı olan soydaşımız kimi seçkilər barədə fikirlərinizi bilmək maraqlıdır.**

–2024-cü il bizim ölkəmizin tarixində ən önəmli illərdən birinə çevrilməkdədir. Çünki xalqımız ölkəmizin müstəqillik tarixinin yeni bir şanlı səhifəsinə imza atır. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildikdən sonra əvvəl Prezident seçkilərinin, indi isə Milli Məclisə seçkilərin keçirilməsi böyük tarixi hadisədir.



İşğaldan azad edilmiş torpaqlarda dövlətimiz yenidənqurma işləri aparır. Öz ata-baba torpaqlarına yenidən qayıdan məcburi köçkünlərin və ümumilikdə bütün azərbaycanlıların həyatında yeni bir zəfər dövrü başlayıb. Bu il həm də vaxtilə məcburi köçkün olan soydaşlarımız öz bölgələrində səs verə biləcəklər. Şuşa, Xankəndi, Kəlbəcər, Laçın, Ağdam, Xocalı və digər rayonlardan olan seçicilər müvəqqəti məskunlaşdığı hansısa bölgədə deyil, bilavasitə öz şəhərində səsvermədə iştirak edəcəklər. Beləliklə, 7-ci çağırış Milli Məclisə seçkilər dövlətçilik tariximizdə ən əlamətdar hadisələrdən birinə çevriləcək. Bu, siyasi sistemimiz adına qürurverici bir hadisədir.

**– Səsvermə ərəfəsində seçicilərə hansı çağırışla müraciət etmək istərdiniz?**

– Mən fürsətdən istifadə edərək həm öz, həm də icma nümayəndələrimiz adından qürur mənbəyimiz olan Azərbaycanın hər gününün sülh və əmin-amanlıq içərisində keçməsi, torpaqlarımızın çiçəklənməsi və hər bir azərbaycanlının xoşbəxt, firavan yaşaması arzusu ilə öz xalqıma müraciət edirəm. Hər kəsi qarşıdan gələn Milli Məclisə seçkilərdə fəal iştirak etməyə, ölkəmizin müstəqilliyinin, suverenliyinin, xalqımızın xoşbəxt gələcəyinin təmin edilməsi uğrunda gecə-gündüz çalışan, onların problemlərini həll edən namizədlərə səs verməyə çağırıram.

*A.ƏLİYEV*
*XQ*

## Seçkilər çağdaş demokratiyanın parlaq təzahürü olacaq

**“Azərbaycanda demokratiya əsasında qurulmuş zəngin milli dövlətçilik təcrübəsi var. Qarşıdan gələn növbədənkənar parlament seçkiləri bu mənada demokratiyanın təzahür elementlərindən biri olacaq. Siyasi partiyaların nümayəndələrinin, eləcə də sadə vətəndaşların seçki prosesində iştirakı, seçkinin ölkənin hər bir regionunda baş tutması həm də böyük rəmzi məna daşıyır”.**

Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında hüquq elmləri doktoru, Özbəkistanın Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin prorektoru Gülnoza İsmayılova deyib.

Onun sözlərinə görə, siyasi müstəqilliyin möhkəmləndirilməsi daxili və xarici çağırışlara adekvat cavab verə bilən sabit və effektiv idarəetmə sisteminin gücləndirilməsini tələb edir: “Erkən seçkilər parlamentin tərkibini yeniləmək, islahatların həyata keçirilməsi üçün lazımi bilik və bacarıqlara malik yeni siyasətçiləri və ekspertləri cəlb etmək imkanı verir. Bu, qanunvericilik fəaliyyətinin keyfiyyətini yüksəldəcək”.



Professor qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası bütün ölkənin və ilk növbədə işğaldan azad edilmiş ərazilərin sürətli iqtisadi inkişafı üçün unikal imkanlar yaradır: “Bu regionlar kənd təsərrüfatı, sənaye və turizm də daxil olmaqla iqtisadi artım üçün əhəmiyyətli potensiala malikdirlər. Bu kontekstdə yeni parlament geri qaytarılan ərazilərin milli iqtisadiyyata inteqrasiyasına yönəlmiş strateji proqramlar işləyib hazırlamaq imkanı əldə edəcək”.

“Ümumiyyətlə, Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkiləri onun siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsində, öz inkişaf modelinin həyata keçirilməsində mühüm mərhələdir”, – deyə Gülnoza İsmayılova fikrini yekunlaşdırıb.

*Anar TURAN*
*XQ*

## Namizədlər nə zaman cərimələnə bilərlər?

**Milli Məclisə növbədənkənar seçkilərlə bağlı avqustun 9-dan etibarən təşviqat kampaniyasına başlanılıb. Bunun üçün hər dairə üzrə qapalı və açıq məkan olmaqla 5509 ünvan müəyyənləşdirilib. Proses avqustun 31-i saat 8:00-da başa çatacaq.**

Hazırda deputatlığa namizədliyi qeydə alınmış şəxslər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən təşviqat kampaniyası həyata keçirilir. Maraqlıdır, seçkiqabağı təşviqatın aparılması qaydalarının və müddətinin pozulmasına görə qanunvericilikdə hansı cərimələr nəzərdə tutulub?

“Seçki 2024” Müstəqil Media Mərkəzi bildirir ki, Seçki Məcəlləsinin 164.1-ci bəndinə əsasən, seçkiqabağı və ya referendumla bağlı təşviqatın aparılmasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalarının və müddətinin pozulmasına görə, namizədlərə 100 manatdan 150 manatadək cərimə nəzərdə tutulur.

Qeydə alınmış namizədə seçkiqabağı təşviqatın müddəti başa çatana kimi şərəf və ləyaqətini seçki qanunvericiliyi ilə müəyyən olunmuş televiziya və radio yayımçılarının proqramlarında və dövri nəşrlərdə onların vəzifəli şəxsləri tərəfindən müdafiə etmək imkanının verilməməsinə görə – vəzifəli şəxslər 150 manatdan 250 manatadək , hüquqi şəxslər 300 manatdan 450 manatadək cərimə olunur.

*XQ*

# Seçki xəbərləri



### 51 min 966 seçici qeydə alınıb

“Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 99 saylı Bərdə DSK-nın sədri Dilsuz Nəcəfov bildirib ki, məntəqə seçki komissiyalarının üzvləri üçün MSK tərəfindən təşkil olunan maarifləndirici treninqlər başa çatıb: “Treninqlərdə seçkilərin keçirilməsi ilə bağlı aşağı seçki komissiyalarının üzvləri maarifləndirilib. Onların rolları və vəzifələri, seçki günü prosedurları və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması qaydaları izah olunub”. O qeyd edib ki, 99 saylı Bərdə seçki dairəsində 51 min 966 seçici var. Bu günə kimi müraciət edən13 nəfərdən səkkizinin deputatlığa namizədliyi qeydə alınıb.

### İlk dəfə səs vermək ikiqat şərəflidir



“Təbii ki, qalib ölkənin vətəndaşı olmaq qürurvericidir. Bu seçkilərin mənim üçün xüsusi əhəmiyyəti var. İlk dəfə Azərbaycanın tamhüquqlu vətəndaşı kimi səsvermə hüququmdan istifadə edəcəyəm”.

Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında ilk dəfə səs verəcək Nihat Əfəndi deyib. Onun sözlərinə görə, parlament seçkilərində seçici kimi iştirak etmək xüsusi əhval yaradır: “Bu seçkilər Azərbaycanın hər bir vətəndaşı üçün müstəsna əhəmiyyətə malikdir. Biz gənclər üçün isə seçkilərdə iştirak etmək ikiqat bayramdır”.

### Seçki könüllüləri buklet paylayırlar



Milli Məclisə növbədənkənar seçkilərlə bağlı Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə gənclərin maarifləndirilməsi prosesi davam edirilir. “Seçki 2024” Müstəqil Media Mərkəzinin məlumatına görə, MSK ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən maarifləndirmə zamanı Seçki könüllüləri tərəfindən Bakı şəhərinin müxtəlif ərazilərində və ölkənin digər iri şəhərlərində gənc seçicilərə seçki prosedurları ilə bağlı maarifləndirici bukletlər paylanılıb.

### Vətənin bir parçası olmaq qürurvericidir

“Parlament seçkilərinin Azərbaycanın bütün ərazisində keçirilməsi və vətəndaşlarımızın öz doğma torpaqlarında səs verə bilməsi sevindirici və tarixi hadisədir”.

Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Vətən Müharibəsi Qəhrəmanı Ramazan Hudulov deyib.

O bildirib ki, ilk dəfə olaraq xalqımız parlament seçkilərində elliklə doğma torpaqlardakı seçki məntəqələrində rahat və sərbəst şəkildə öz namizədlərinə səs verəcəklər.

“Şəhidlərimizin qanı, qazilərimizin canı bahasına Zəfər qazandıq. “Dəmir yumruq” ətrafında birləşmiş bütöv xalq olaraq düşmənin başını əzməyi bacardıq. Bu gün şəhidlərimizin ruhu şaddır ki, onların qanı yerdə qalmadı, qisasları alındı. Onların uğrunda canlarını fəda etdikləri torpaqlarımız azaddır. Bunun bir parçası olmaq bizi qürurlandırır və hər zaman güclü və qüdrətli olmasını arzu edirəm”, – deyə Vətən Müharibəsi Qəhrəmanı əlavə edib.

*Hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Bakı–Moskva: Müstəqil siyasi xəttin uğuru və yüksək etimad amili

## Ənənəyə sadiqliyin dostluq və əməkdaşlıq təntənəsi

**Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfəri nə qədər gözlənilməz sayılsa da, Azərbaycan və Rusiya arasındakı münasibətlərin hazırkı yüksək dinamikası gözlənilməzlik amilini ikinci plana atır. Əlbəttə, hər bir halda bu amil sözünü deyir və yazımızda onu şərtləndirən cəhətlərə diqqət yetirəcəyik.**



Bəli, hazırkı dövrdə, demək olar ki, dünyanın böyük əksəriyyəti Rusiyaya qarşıdır. Elə təsəvvür formalaşıb ki, beynəlxalq aləm nəhəng ölkəni parçalamağa hazırdır. Xüsusən, Rusiya–Ukrayna müharibəsi fonunda yaşananlar belə düşünməyə əsas verir. Mövcud situasiyada bəziləri V.Putinin Azərbaycana səfərini ölkəmizə ziyan vuracaq tendensiya kimi dəyərləndirirlər. Ancaq bir məqamı unutmaq olmaz. Azərbaycan Prezidenti İlham Əliyev belə düşüncə sahiblərindən qat-qat irəlidə olduğunu, hadisə və proseslərə münasibətdə rasional mövqe tutduğunu, düzgün qərarlar verdiyini həmişə sübuta yetirib. Deməli, Rusiyanın dövlət başçısının ölkəmizə gəlişinə münasibət heç də tam mənada dünyanın mürəkkəb siyasi təbəddülatlarına nəzərən qurulmamalıdır. Yəni ki, haqqında söz açdığımız gözlənilməzlik yox, Bakı və Moskva arasındakı əlaqələrin güclənən dinamikası əsas götürülməlidir.

Həm də o nəzərə alınmalıdır ki, Azərbaycan öz siyasətini heç də dünyanın ümumi axarına, diktə edilən şərtlərə uyğun qurmur. Ölkəmizin müstəqil dəst-xəttini xarakterizə edən başlıca cəhət elə budur. Rəsmi Bakı regionda sülhün, təhlükəsizliyin möhkəmlənməsinə yönəlmiş konseptual baxışına sadiqdir. Mövcud kontekstdəki ən başlıca məqam qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafıdır. Bu trayektoriyada Rusiyanı Azərbaycan üçün böyük bazar kimi qəbul etmək zərurəti də var, ölkənin əsrlərdir Cənubi Qafqaza bağlılığı prioriteti üzərində dayanmaq da. Deməli, diqqətə çatdıracağımız rəqəmlər heç kəsi təəccübləndirməməlidir.

Azərbaycan – Rusiya əlaqələri dövlətlərin müstəqilliyi, ərazi bütövlüyü, bərabərhüquqluluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında qurulub və inkişaf edir. Bu, yaxın dostluq münasibətlərindən, dövlətlərarası dialoqun yüksək səviyyəsindən qaynaqlanır. Qeyd edək ki, 2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 2 milyard 572,8 milyon dollar təşkil edib. Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz və ya 127,5 milyon dollar artıb. Həmçinin, hesabat dövründə Rusiyadan Azərbaycana ixrac 10,6 faiz artaraq 1 milyard 916,7 milyon dollara bərabər olub. Bu dövrdə Azərbaycanın qeyri-neft məhsulları ixrac etdiyi ölkələr arasında Rusiya birinci yerdə qərarlaşıb. Belə ki, cari ilin yanvar – iyul ayları ərzində Azərbaycandan Rusiyaya 641 milyon 87 min ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib. Həmçinin, Azərbaycandan Rusiyaya əsasən meyvə-tərəvəz (pomidor, kartof, alma, meşə fındığı, albalı, çiyələk, xurma və sair) meyvə şirələri, ilkin formalı propilen sopolimerləri və başqa məhsullar ixrac edilib.

Bundan başqa, 2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi ümumi ticarət dövriyyəsinin 9,57 faizinə bərabər olub. İki ölkə arasında iqtisadi əlaqələrin inkişafı baxımından onu da deyə bilərik ki, 2023-cü ilin nəticələrinə görə 2022-ci illə müqayisədə ticarət dövriyyəsi 17 faiz artaraq 4,5 milyard dollar səviyyəsinə yüksəlib. Bu mənada 2024-cü ildən daha yüksək nəticə gözlənilir. Sənaye, kənd təsərrüfatı, turizm və tranzit axını, yük daşımalarının həcminin artması proqnozlaşdırılır.

Bəli, bütün bunlar Azərbaycan–Rusiya bağlılığı ilə bağlı ciddi göstəricilərdir və nəzərə alaq ki, bu göstəricilərin mövcudluğu həm də ənənədən xəbər verir. Yeri gəlmişkən, Moskvanın belə bir əməkdaşlıq ənənəsi başqa postsovet respublikalarına münasibətdə qorunur. O cümlədən, Ermənistana münasibətdə. Ancaq rəsmi İrəvan bunu nəzərə almır. Nəzərə almır ki, Ermənistanın hazırkı iqtisadi inkişaf tempində başlıca rolu Rusiya oynayır. Axı Ermənistan həmişə Rusiya bazarına ehtiyac duyub. Əslində, soyuq yanaşsaq, hər iki tərəfin bir-birinə ehtiyacı var. Əsas məsələ ehtiyacı digər vasitələrlə aradan qaldırmaq potensialıdır ki, bu baxımdan Rusiyanın daha üstün mövqedə olduğunu söyləməyə ehtiyac yoxdur. Çünki hər şey bəllidir. Necə deyərlər, Rusiya erməni əriyi olmadan da yaşaya bilər. Ermənistan isə...

Ancaq məsələyə sırf ehtiyac pəncərəsindən deyil, haqqında söz açdığımız ənənə kimi baxmaq daha doğru olardı. Məsələ ondadır ki indiki erməni iqtidarı məhz ənənəni yox etməyə çalışır. Mehriban qonşuluq siyasətinə zidd təmayül də elə budur. Azərbaycan və Rusiyanın birgə əməkdaşlığındakı konturlar isə tarixən formalaşmış ənənələrə zidd hallara münasibətdə birgə müqavimət gücünü saxlaması ilə seçilir. Bu, hər iki ölkə iqtidarının əməyinin bəhrəsidir, nəsillərə miras qalacaq müstəsna uğurdur. Aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, iqtisadi-ticarət əlaqələrinin yüksəlməsi iki ölkənin mövcud potensialına əsaslanır. Yəni, bu, Ermənistanda olduğu kimi, beynəlxalq sanksiyalar altında olan məhsulların ixracı hesabına deyil.

Bütün bunlar öz yerində, onu qəbul etməyən dünyanın Rusiyanın varlığı ilə hesablaşması indilik çox çətin görünür. Rusiya–Ukrayna müharibəsinin uzanması, savaşın daim fərqli çalarlar əldə etməsi, kollektiv Qərbin anti-Moskva ovqatının güclənməyə doğru getməsi fonunda Rusiyanın regionun böyük ölkələrindən biri kimi qəbul edilməsi, Azərbaycanla tarixən sıx iqtisadi-ticarət, siyasi, humanitar əlaqələrə malik olduğunun əsas götürülməsi adi məsələ sayıla bilməz.

Sonda bir məqama da diqqət yetirək. Söhbət Rusiyanın Azərbaycana etimadından gedir. Etimadın, belə demək mümkünsə, məhsullarından söz açdıq. Bir daha deyək ki, Azərbaycan müstəqil siyasət yeridir. Bu, dövlətimizin milli maraqları üstün tutma xəttidir. Rusiyada bu xətti düşünülmüş, məntiqi sayırlar və bu ölkənin xarici siyasətində mühüm rola malikdir. Bu xəttin təmsilçilərinin də üstün tutduqları məhz etimad amilidir. Deməli, Rusiyanın hazırkı düşüncə düzənində Azərbaycanın həm Qərblə, həm Ukrayna ilə, həm də Rusiya, İran və digər ölkələrlə yüksək səviyyəli əlaqələrinin olmasına təbii yanaşılır. Eyni zamanda, ölkəmizin istər BRICS, ŞƏT kimi platformalarda iştirakına, istərsə də Avropa İttifaqı və Qərbin digər qurumları ilə əməkdaşlığına münasibət normaldır. Həmçinin, nəzərə alınır ki, Qoşulmama Hərəkatının fəal üzvlərindən biri olan Azərbaycan hərbi-siyasi platformalara qatılmır. Bir sözlə, ölkəmiz Rusiyaya münasibətdə mehriban qonşuluğu hər zaman öndə tutur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Azərbaycanın regionda artan əhəmiyyəti nəzərə alınmalıdır”

## Rusiyalı politoloqun fikrincə, Putinin Bakıya səfəri Moskvanın dünyadan kənar olmadığına dair mesajıdır

**Prezident Vladimir Putinin Bakıya səfəri dünyanın, elə Rusiyanın siyasi ekspertlərinin də diqqət mərkəzindədir. Səfərlə əlaqədar müxtəlif rəylər, fikirlər və mülahizələr var. Yazımızda onlardan biri barədə söz açacağıq. Həm də ona görə ki, istinad edəcəyimiz siyasi icmalçının bildirdiklərində müəyyən məxsusilik, standartlardan kənar yanaşma var.**

Bəli, rusiyalı politoloq Sergey Markedonovun sözlərindən belə çıxır ki, Putinin Azərbaycana dövlət səfəri Rusiyanın özünü xatırlatmaq fürsətidir. Ekspert bu xatırlatmanı “biz getməmişik” şəklində ifadə edir. Yəni ki, Moskva dünyadan kənar deyil. Deməli, Azərbaycan Rusiyanın dünyadan kənar olmadığının, belə demək mümkünsə, nümayiş platformasıdır. Müvafiq olaraq, ölkəmizin Kremllə beynəlxalq aləm arasındakı körpü missiyası ön plana gəlir. Əslində, mövcud anlamda Markedonovun fikirləri dünyanın bir çox ekspert dairələrinin baxışları ilə üst-üstə düşür. Ancaq politoloqun yanaşması bir qədər fərqlidir.




Beləliklə, S.Markedonov bildirir ki, Putinin Bakıya gəlişi Rusiyanın öz mənafelərini nəzərə alaraq, dünya ilə maraqlanmasının təsdiqidir. Ekspert Kreml rəhbərinin Azərbaycana yeddinci dəfə səfər etdiyini xatırladıb və deyib ki, Putinin sələfi Boris Yeltsin heç vaxt Azərbaycana rəsmi məqsədlərlə gəlməyib, Bakıda yalnız istefa verdikdən sonra “fəxri təqaüdçü” qiyafəsində olub.

Zəruri haşiyə çıxaq ki, dövlət agentliyi TASS Rusiya Prezidentinin Bakıya səfəri əsnasında yaydığı açıqlamada Moskvanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün kömək göstərməyə hazır olduğunu bildirib. Daha doğrusu, söhbət Bakı – İrəvan normallaşmasına yardımın davamına hazır olmaqdan gedir. Xəbərdə o da vurğulanıb ki, “əsas vəzifələr sülh müqaviləsinin imzalanması, Azərbaycan – Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası prosesinin təşviqi, məlum 2020-2022-ci illərin ən yüksək səviyyəli üçtərəfli sazişləri əsasında regionda nəqliyyat, logistika və iqtisadi əlaqələrin bərpasıdır”.

Rusiya və Azərbaycan dövlət başçılarının 2024-cü ildə üçüncü dəfə görüşmələrinə diqqət çəkən Markedonov isə Ukrayna müharibəsi üzərində dayanıb. Onun sözlərindən gəlinən qənaət budur ki, Kurskun timsalında müharibənin Rusiya torpaqlarına çatması Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasının Moskva üçün prioretlik dərəcəsini ikinci plana atıb. Bununla yanaşı, Markedonov əmindir ki, Rusiya məsələdən əlini çəkmək istəmir: “Bu məsələ Rusiya üçün hər zaman vacib olacaq. Rusiya Qafqaz dövlətidir, ona görə də Moskva barmağını bölgənin nəbzində saxlamaq istəyir”.

Politoloq ona da əmindir ki, dəfələrlə səslənmiş tezislərə və tərəflərin təqvim ilinin sonuna qədər, sözün həqiqi mənasında, müvafiq sazişi imzalayacaqlarına dair açıqlamalara baxmayaraq, Ermənistan və Azərbaycan arasında münasibətlər sülhdən və real normallaşmadan uzaqdır. “Kollektiv Qərb Moskvanın Qafqaza diqqətinin müəyyən qədər zəifləməsindən ABŞ+Aİ adından sülhə nail olmaq üçün istifadə etməyə çalışır”, – deyən Markedonov bunun Moskvanı qane etmədiyini deyib. O, özünün Putinin Bakıya səfəri ilə bağlı dilə gətirdiyi “biz getməmişik”, “özümüzü xatırlatmaq” məntiqini bu baxımdan da əsaslandırıb.

Politoloqun əvvəldə anons etdiyimiz fikir fərqliliyindəki bir məqam da budur. Ən əsası isə siyasi icmalçının “biz Rusiyanın maraqlarını nəzərə alaraq sülhdə maraqlıyıq. Əgər İrəvanda bunu eşitmək istəmirlərsə, biz Bakıda eşidənlər tapmağa çalışacağıq” fikridir. Hesab edirik ki, belə bir ifadə tərzi Rusiyanın ictimai-siyasi industriyasının Ermənistana xəbərdarlığı, hətta hədə-qorxusu kimi də dəyərləndirilə bilər.

Markedonov onu da qeyd edib ki, Azərbaycan anti-Rusiya sanksiyalarından uzaq dayanır, Moskva ilə Vaşinqton (+Brüssel) arasında davam edən qarşıdurma fonunda, Rusiya ilə qarşılıqlı fəaliyyətə hazır olduğunu göstərir: “Burada ortaq məqamlar var. Amma, gəlin, dürüst olaq: Burada hər kəs öz məqsədlərini güdür, altruizm və şəxsi planda heç bir şey yoxdur”.

Məlumdur ki, bir çox siyasi ekspertlər Putinin Azərbaycana səfəri fonunda Moskvanın Bakıya, bir növ, tam və yekdil dəstəyi ritorikasını qabardırlar. Bu mənada Markedonov ehtiyatlıdır. O, danışıqların nəticəsini gözləməyi təklif edir. Bildirir ki, Moskvadan başqa Bakının Ankara ilə strateji müttəfiqliyi var və mövcud müstəvidə hər şey bəzilərinin istədiyi kimi aydınlıq paradiqmasından uzaqdır.

Azərbaycanın Türkiyə ilə dialoqda öz payını artırmaq üçün Rusiya faktorundan istifadə etdiyini bildirən S.Markedonov onu da deyib ki, rəsmi Bakı Qərblə Rusiya, Rusiya və Türkiyə arasında “son seçim” etməyə çalışmır. Sadəcə, Azərbaycanın regionda artan əhəmiyyəti nəzərə alınmalıdır. Moskva bundan maksimum şəkildə öz milli maraqlarını nəzərə alaraq faydalanmalıdır. “Eyni zamanda, Ermənistanı, Gürcüstanı, Suriya və İranı da unutmamalıdır”, – deyən politoloq fikrini tamamlayıb.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Rusiyanın erməni diasporu bu ölkəyə xəyanət edir

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Rusiya Erməniləri İttifaqının bu ölkənin Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ilə bağlı müraciətini media üçün şərh edərək bildirib ki, bu anti-Azərbaycan aksiya erməni diasporunun fürsətçiliyini və avantüraya meyliyini bir daha aydın nümayiş etdirir.**




***Açıqlamada göstərilir:*** “Görünür, qurumun rəhbəri Ara Abramyan və onun yaxın ətrafı belə əsassız çağırışlarla Rusiya rəhbərliyinin mövqeyinə təsir göstərəcəklərini və bu yolla Azərbaycanı öz mövqeyindən çəkinməyə məcbur edə biləcəklərini düşünürər. Bu faktın özü bir daha göstərir ki, erməni lobbi təşkilatları hansı ölkədə fəaliyyət göstərmələrindən asılı olmayaraq, dünya erməniliyinin və Ermənistan dövlətinin maraqlarını əsas götürür və həmin ölkənin rəsmi siyasətinə təsir göstərməyə çalışırlar. Bir çox hallarda irəli sürülən tələblər həmin ölkələrin milli maraqları ilə tam ziddiyyət təşkil edir və ikitərəfli münasibətlərin zədələnməsinə, hətta pozulmasına gətirib çıxarır”.

Erməni lobbisinin maraqlarının ifadəçisinə çevrilmiş Fransanı və onun prezidenti Emmanuel Makronu bədnam nümunə kimi xatırladan AMŞ sədri qeyd edir ki, məhz Fransa rəhbərinin əsassız iddialarının, e***rmənipərəst siyasətinin və beynəlxalq hüquq normalarına hörmətsiz münasibətinin nəticəsidir ki, vaxtilə inkişaf edən Fransa–Azərbaycan əlaqələri bu gün tarixinin ən acınacaqlı dövrünü yaşayır:*** “İndi isə Ara Abramyan, Marqarita Simonyan, Aram Qabrielyanov və bu kimi digər erməni diaspor rəhbərləri və fəalları zənn edirlər ki, analoji ssenarini Rusiyada təkrarlayaraq rəsmi Moskvanı Azərbaycanla təzyiq və tələb dili ilə danışmağa məcbur edə bilərlər”.

***Açıqlamanın davamında deyilir ki, Rusiya illərlə Ermənistana hərtərəfli dəstək göstərməsinə baxmayaraq, bu gün Nikol Paşinyanın hökuməti Qərblə yaxınlaşmaq və rəsmi Moskva ilə əlaqələrini kəsmək yolunu tutub***: “Bu riyakarlıq fonunda Rusiya rəhbərliyinin, ələlxüsus da Vladimir Putin kimi nüfuzlu siyasətçinin erməni lobbisinin istək və arzularına uyğun şəkildə dost ölkələrlə münasibətlərə xələl gətirəcək addımlar atacağını gözləmək yalnız primitivliyin və sadəlövhlüyün əlaməti ola bilər. Artıq Rusiyanın rəsmi dairələri, siyasətçiləri, tanınmış ictimaiyyət nümayəndələri də yaxşı bilirlər ki, nə Ermənistana, nə də onun maraqlarının ifadəçisi olan erməni lobbisinə inanmaq, bel bağlamaq olmaz”.

***Media qurumu rəhbəri sonda onu da bildirir ki, Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri proqramının zənginliyi, səfər çərçivəsində Prezident İlham Əliyevlə apardığı müzakirələr, səsləndirdiyi fikirlər Azərbaycan–Rusiya münasibətlərinin bu gün*** yüksək səviyyədə ***olduğunu göstərir***: “Buna görə də erməni lobbisi pozucu əməllərini davam etdirmək və müxtəlif avantüralarla öz naqis məqsədlərinə nail olmaq yolundan çəkinməli, bununla Azərbaycanın dünyadakı nüfuzuna, ayrı-ayrı ölkələrlə, o cümlədən də Rusiya ilə münasibətlərinə xələl gətirə bilməyəcəyini anlamalıdır”.

***XQ***

# İqtisadi əlaqələr Azərbaycan – Rusiya strateji tərəfdaşlığının möhkəm təməlidir

**Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etibarlı münasibətləri sayəsində ötən illər ərzində dövlətlərarası əlaqələr strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində daha da möhkəmlənib. Çoxşaxəli strateji tərəfdaşlıq 260-dan çox imzalanan sənədi özündə ehtiva edən samballı hüquqi baza ilə təmin olunub. 2022-ci il fevralın 22-də Moskvada prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" ilə iki ölkə arasında siyasi-iqtisadi əməkdaşlıq özünün yeni inkişaf mərhələsinə daxil olub. Bu gün iki ölkə əməkdaşlığında ticarət, energetika, sənaye, kənd təsərrüfatı, logistika, nəqliyyat və digər sahələr davamlı inkişaf edir, səmərəli dövlət dəstəyi ilə investisiya əlaqələri güclənir.**



Hazırda Rusiya Azərbaycan üçün ən mühüm investorlardan və ən böyük ticarət tərəfdaşlarından biridir. Neft ixracında isə ən böyük tərəfdaş kimi diqqət çəkir. İki ölkə arasında ticarət dövriyyəsinin rekord rəqəmlərlə ifadə olunması da vurğulanan fikrin bariz ifadəsidir. Ərzaq və kənd təsərrüfatı xammalı, neft, metal və plastik məhsullarının qarşılıqlı ticarəti də getdikcə artır. Üstəlik, bu ilin yayına qədər qarşılıqlı hesablaşmaların, təxminən, dörddə üçü ilə həyata keçirilən milli valyutalar əsasında ticarət də inkişaf edir. İkitərəfli yükdaşımaları da nəzərəçarpacaq dərəcədə artır və turist axını intensiv şəkildə özünü büruzə verir.

Son illər ərzində respublikamızda Rusiya sərmayəsi ilə əczaçılıq, neft-kimya, qida sənayesi, şərabçılıq, mədən sənayesi, tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri qeydə alınıb. Xüsusilə, "Lada", "Qazel", "KamAZ" və "Ural" avtomobilləri üçün servis dəstəyi gücləndirilib. Bununla yanaşı, perspektivli sahələr arasında metallurgiya və turizmin inkişafına mühüm önəm verilib. Azərbaycan sahibkarları tərəfindən isə Rusiyada aqrobiznes, meşə təsərrüfatı və turizmə, o cümlədən Xəzər dənizinə fəal şəkildə investisiya yatırılıb.

Bütün bunlar barədə prezidentlər İlham Əliyevin Vladimir Putin ilə avqustun 19-da məhdud və geniş tərkibdə keçirdiyi görüşlərdə, eləcə də dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarında geniş bəhs edilib. Qeyd edilib ki, Rusiya Azərbaycanın üçüncü ən böyük, qeyri-neft ixracına görə isə birinci ticarət tərəfdaşıdır. 2023-cü ildə ticarət dövriyyəsinin 17,5 faiz artaraq rekord həddə – 4,4 milyard ABŞ dollarına çatması, cari ilin I yarısında isə bu sahədə dinamik artım qeydə alınması iki ölkənin idxal-ixrac münasibətlərini daha da möhkəmləndirib. İki ölkə arasında sənaye əməkdaşlığı da yüksələn xətlə inkişaf edir. Azərbaycanın müxtəlif sənaye zonalarında dərman vasitələrinin birgə istehsalı, yük avtomobillərinin yığılması, yük avtomobilləri və kənd təsərrüfatı texnikası üçün servis xidmətlərinin göstərilməsi sahəsində uğurlu əməkdaşlıq bu gün xüsusilə qeyd olunur.

Azərbaycan şirkətləri tərəfindən Rusiya iqtisadiyyatına fəal şəkildə investisiya qoyulur. Rusiyanın regionlarında sanatoriya və turizm mərkəzlərinin, mehmanxana komplekslərinin, meyvə-tərəvəz konservləri və çay istehsalı zavodlarının tikintisi layihələri də uğurla həyata keçirilir. Kənd təsərrüfatı sahəsində əməkdaşlıq dinamikası daha çox diqqət çəkir. Azərbaycanın Rusiyaya kənd təsərrüfatı məhsulları ixrac edən əsas ölkələrin onluğuna daxil olması, 2023-cü ildə qonşu dövlətə meyvə və tərəvəz ixracının, təxminən, 9 faiz artması da bunun bariz ifadəsidir.

Hər iki tərəf nəqliyyat-tranzit sahəsində əməkdaşlığın inkişafını da diqqətdə saxlayır. Ötən il Azərbaycanla Rusiya arasında ikitərəfli yükdaşımaların ümumi həcmi 10 faizdən çox artıb. Bu il də müsbət tendensiya müşahidə olunur, cari ilin birinci yarısında isə artım 3 faiz təşkil edib.

Prezidentlərin mətbuata bəyanatlarla çıxışlarında bir məqam da diqqət çəkib. Bu, "Şimal-Cənub" layihəsi ilə bağlı olub. Dövlətimizin başçısı adıçəkilən layihə haqqında danışarkən, onu Bakı və Moskvanın dövlətlərarası münasibətlərində müstəsna əhəmiyyətə malik infrastruktur kimi qiymətləndirib: "Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal–Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı məqamda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarından danışırıq".

Yeri gəlmişkən, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

Nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilib, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilib, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihəsi gerçəkləşdirilib.

Rusiya Prezidenti hələ bir müddət bundan əvvəl Şimal–Cənub Nəqliyyat Dəhlizinin əhəmiyyəti barədə Rusiya mediasına müsahibəsində deyib: "Biz hər iki tərəfdən iş aparırıq. Mən bilirəm ki, Prezident Əliyev bu layihəni dəstəkləyir. Biz bu məsələni onunla dəfələrlə müzakirə etmişik. İran rəhbərliyi də bu layihəni dəstəkləyir. Bu dəhliz çox sərfəli olacağına görə həmin layihəyə xarici investorlar, regional olmayan, lakin yaxın olan ölkələr, o cümlədən suveren ərəb fondları da maraq göstərir. Aydındır, çünki suveren fondlar həmişə etibarlı investisiya sahələri axtarır. Bu layihə etibarlı investisiyalardan biridir, çünki onun gəlirliliyinə təminat və zəmanət var".

Şimal–Cənub Nəqliyyat Dəhlizi ilə bağlı əlavə araşdırmalara ehtiyac duyulduğunu vurğulayan V.Putin sözügedən nəqliyyat-logistika sisteminin Azərbaycanın hansı əraziləri üzrə qurulacağı, onun necə maliyyələşdiriləcəyi, dəhlizin Azərbaycan ərazisindən Qərbə gedən yollarla necə birləşdiriləcəyi, habelə İran ərazisindən keçən bu yolun şaxələndirilmiş hissələrinin necə inşa ediləcəyi barədə müzakirənin aparılması zəruriliyini də xatırladıb.

Xatırladaq ki, bu dəhlizinin təməli 2000-ci ildə Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Bu günə qədər, ümumilikdə, 13 ölkə sözügedən sazişi ratifikasiya edib. Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub.

Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılması üçün hazırda sərf edilən zamanı 40–42 gündən 18-20 günə qədər – yəni iki dəfə qısaltmaqdır. Bu, yüklərin şimaldan cənub istiqamətində və əksinə daşınması sahəsində zaman baxımından inqilabi bir dönüş demək olacaq.

# 7 ayda ÜDM istehsalı 4,5 faiz artıb

## Bu, ümumi tərəqqinin davamlı olduğunu göstərir



**Ölkəmizdə əvvəlki dövrlərdə müşahidə olunan iqtisadi yüksəliş 2024-cü ilin yanvar–iyul aylarında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar–iyul aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 70,5 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 4,5 faiz çoxdur.**

2023-cü ilin 7 ayı ilə müqayisədə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artıb. Əlavə dəyərin 38,4 faizi sənaye, 9,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,7 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 19,1 faizi isə digər sahələrdə istehsal olunub. Yanvar-iyul ayları ərzində məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil edib.

2024-cü ilin 7 ayında ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayedə baş verən artım diqqəti xüsusilə cəlb edir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 37,3 milyard manatlıq məhsul istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri-neft-qaz sektorunda isə 8 faiz artıb. Bu da ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir.

Sənaye məhsulunun 65 faizi mədənçıxarma sektorunun payına düşüb. Hesabat dövründə sözügedən sektor üzrə əmtəəlik neft hasilatı 4,3 faiz azalsa da, əmtəəlik qaz hasilatı 6,4 faiz artıb. Ümumilikdə, cari ilin ötən 7 ayında mədənçıxarma sənayesində 24,2 milyard manatlıq məhsul istehsal olunub. Sahənin mühüm növ məhsullarına gəldikdə isə, hesabat dövründə ölkə üzrə 16 milyon 950,1 min ton xam neft və kondensat istehsal edilib ki, bunun da 16 milyon 913,8 min tonunu əmtəəlik məhsul təşkil edib. Bununla yanaşı, ilin əvvəlindən 29 milyard 457,2 milyon kubmetr təbii qaz hasil olunub. Ümumi hasilatın 22 milyard 510,9 milyon kubmetri əmtəəlik qazın payına düşüb.

Cari ilin yanvar–iyul aylarında emal sektorunda istehsal olunmuş məhsulun sənayedə xüsusi çəkisi 29,3 faiz təşkil edib. Sözügedən dövrdə sahənin mühüm növ məhsullarından olan kompüter, elektron və optik məhsulların, əczaçılıq sənayesi mallarının, mebellərin, avtomobil, qoşqu və yarımqoşquların, elektrik avadanlıqlarının, dəri və dəri məmulatlarının, ayaqqabıların, geyimlərin, qida məhsulları və içkilərin, tütün məmulatlarının, tikinti materiallarının, rezin və plastik kütlə məmulatlarının, metallurgiya və kimya sənayesi mallarının, neftin və hazır metal məmulatlarının istehsalında əhəmiyyətli artım qeydə alınıb.

2024-cü ilin 7 ayında ölkə sənayesinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1 milyard 794,7 milyon manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 341,7 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib. Hesabat dövründə ölkə üzrə 15 milyard 236,3 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Bunun da 14 milyard 729 kilovat-saatı əmtəəlik elektrik enerjisi olub. Ümumi istehsalın 12 milyard 550,7 milyon kilovat-saatı istilik, 1 milyard 849 milyon kilovat-saatı su, 295, 5 milyon kilovat-saatı günəş, 33,8 milyon kilovat-saatı isə külək elektrik stansiyalarının payına düşüb.

Bu ilin yanvar-iyul aylarında iqtisadiyyatın digər mühüm sahələrindən olan aqrar sektorda 7 milyard 508,2 milyon manat dəyərində məhsul istehsal edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalında 0,8 faizlik artım qeydə alınıb. Hesabat dövründə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 0,2 faiz artaraq 3 milyard 836,8 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,5 faiz çoxalaraq 3 milyard 671,8 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil olmaqla, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi cari il iyulun 1-i vəziyyətinə 1 milyon 637,1 min hektar təşkil edib. Bu da əvvəlki illə müqayisədə 102,1 min hektar və yaxud 6,7 faiz artım deməkdir. Hesabat dövründə ümumi əkin sahəsi kənd təsərrüfatı müəssisələri üzrə 44,3 faiz, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə 2,1 faiz artıb. Ölkə üzrə əkin sahələrinin 1 milyon 25 min hektarı və yaxud 62,6 faizi dənli və dənli paxlalı bitkilərin, 127,9 min hektarı texniki bitkilərin, 128,7 min hektarı kartof, tərəvəz və bostan bitkilərinin, 355,5 min hektarı isə yemlik bitkilərin əkin sahələrinin payına düşüb. Bu il avqust ayının 1-dək tarlalardan qarğıdalı da daxil olmaqla 2 milyon 935,5 min ton dənli və dənli paxlalı bitkilər, 1 milyon 245,7 min ton tərəvəz, 598,6 min ton kartof, 429 min ton bostan məhsulları, 331,1 min ton meyvə və giləmeyvə, 22 min ton şəkər çuğunduru, 5,8 min ton üzüm, 1,8 min ton günəbaxan, 1,8 min ton tütün və 773,4 ton yaşıl çay yarpağı yığılıb.

Kənd təsərrüfatının digər mühüm sahəsi olan heyvandalıq üzrə əldə olunmuş göstəriciləri də uğurlu hesab etmək olar. Belə ki, cari ilin yanvar-iyul aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 331,2 min ton ət, 1 milyon 312 min ton süd, 1 milyard 385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunub. 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artıb, yun istehsalı 1,6 faiz, barama istehsalı isə 32,9 faiz azalıb.

2024-cü ilin 7 ayında Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyaların həcmində də əhəmiyyətli artım baş verib. Dövlət Statistika Komitəsi bildirir ki, hesabat dövründə əsas kapitala 9 milyard 438,7 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Yanvar-iyul aylarında neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 0,4 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 2,9 faiz artıb. Ümumi sərmayənin 4 milyard 914,8 milyon manatı və ya 52,1 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 404,4 milyon manatı və ya 36,1 faizi xidmət sahələrinə, 1 milyard 119,5 milyon manatı və ya 11,8 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

# Ölkəmizdə "Sığorta festivalı"



**Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində ölkəmizdə sayca ikinci dəfə keçirilən "Sığorta festivalı"na bu gün start verilib.**

2021-ci ildən ölkə əhalisinin sığorta savadlılığının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı maarifləndirmə layihəsi çərçivəsində çoxşaxəli tədbirlər davam etdirilir. Bu tədbirlərdən biri də ölkəmizdə ikinci dəfə keçirilən "Sığorta festivalı" layihəsidir.

Ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə təşkil olunan festival sentyabr ayının 7-dək respublikamızın 5 şəhərində – Bakı, Naxçıvan, Sumqayıt, Lənkəran və Gəncə şəhərlərində keçiriləcək. Tədbir çərçivəsində sığorta maarifləndirməsi prosesi əyləncəli şoular, musiqili proqramlar və hədiyyəli yarışmaların müşayiəti ilə aparılacaq.

Layihənin məqsədi geniş əhali qruplarının və biznes nümayəndələrinin sığorta sahəsində bilik və təsəvvürlərinin artırılması və onların sığorta xidmətlərinə cəlb olunmasının təşviq edilməsindən ibarətdir.

# Orta əməkhaqqı 9 faiz artıb



**Bu ilin yanvar–iyun aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 8,8 faiz artaraq 1002,8 manat təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, eləcə də nəqliyyat sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1760,8 min nəfər olub, onlardan 887,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 873,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

*Səhifəni hazırladı: Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ*
*XQ*

# Erməni cəmiyyəti ümidsizlik, çaşqınlıq və böhran girdabında

## Xilas yolu revanşizmdən əl çəkməkdir

**Dörd il öncə İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğramasına və ötən il lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağın separatçı rejimin nəzarətində olan hissəsindəki ordusunun qalıqlarının darmadağın edilməsinə baxmayaraq, Ermənistanda hələ də revanşist əhval-ruhiyyə qalıb. Bu düşüncələrlə yaşayanlar, əsasən Qarabağ klanının "xaç atası" Robert Koçaryanın sağ əli Seyran Ohanyanın rəhbərlik etdiyi parlamentdəki "Hayastan" fraksiyasının deputatları, ayrı-ayrı siyasətçilər, bəzi elm adamları, jurnalistlər, habelə, Baqrat Qalstanyan kimi "din xadimləri"dir. Son vaxtlar hakimiyyət düşərgəsinə mənsub şəxslər də revanşist fikirlər səsləndirməyə başlayıblar. Zəngəzur (haylar Sünik adlandırır–S.H.) vilayətinin inzibati mərkəzi olan Qafan şəhərinin meri Gevork Parsyanın dünən jurnalistlərə verdiyi açıqlama da bu qəbildəndir.**

O, hələ də Qarabağın erməni işğalından qurtulmasının xiffətini çəkənlərdəndir. Parsyan açıqlamasının davamında bildirib: "Düşünürəm ki, biz Qarabağın böyük faciəsinin şahidi olmamaq üçün hər şeyi edə bilərdik. Zənnimcə, hər bir şüurlu erməni baş vermiş faciəyə görə təəssüflənir, çünki bu gün faktiki olaraq, bizim Qarabağımız yoxdur".

Genişləndirilmiş icmanın rəhbəri Qafanın hazırda hansı problemlərlə üzləşdiyinə dair suala cavab olaraq deyib: "O ki qaldı, Qarabağla Sünik arasında əməkdaşlıq və münasibətlərə, bunun əsrlərə gedib çıxdığı tarixi faktdır. Sünik Qarabağın arxa cəbhəsi olduğu kimi, Qarabağ da, məncə, Sünikin arxa cəbhəsi idi. Bu gün Qarabağın itirilməsinin Sünik bölgəsi üçün daha böyük çağırışlar olduğunu düşünürəm. Biz 2020-ci il dekabrın 18-də baş vermiş məlum hadisədən – Qafanın özünümüdafiəsi əsnasında tutduğumuz strateji yüksəklikləri təhvil verdikdən sonra Azərbaycan bayraqlarının peyda olmasının şahidi olduq. Bundan sonra Azərbaycan qoşunları yaşayış məntəqələrimizin bilavasitə yaxınlığında oldular".

Göründüyü kimi, Ermənistanın böyük şəhərlərindən birinin meri Qarabağın itirilməsinə, daha doğrusu işğaldan azad edilməsinə görə, təəssüf hissi keçirir, bunu "böyük faciə" adlandırır. Həmçinin, zamanında bütün tədbirlərin görülmədiyini bildirir. Onun Qarabağla Zəngəzur arasanda əməkdaşlıq və münasibətlərin əsrlər öncəyə gedib çıxmasına dair fikirlərini isə bölüşməmək mümkün deyil. Hər ikisi



qədim Azərbaycan yurdu olan Qarabağ və Zəngəzur, həqiqətən də, tarixən bir-birinə qaynayıb qarışmış, arxa-dayaq olub ki, bu da təbii qəbul olunmalıdır. Yeri gəlmişkən, qeyd edək ki, Zəngəzur mahalının böyük hissəsi 1920-ci və sonrakı illərdə sovet rəhbərliyi tərəfindən beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistana verilib. Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il iyulun 20-də qəbul etdiyi qərarla Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradılıb. Nəticədə 44-45 kilometr eni olan torpaq zolağı cənuba, Araz çayına doğru uzanaraq Naxçıvan bölgəsini, indiki Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının əsas ərazisindən ayrı salıb, mərkəzin bu bölgə ilə əlaqəsi çətinləşib. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Azərbaycan parçalanıb, onunla Türkiyə arasında əlaqə pozulub, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin və şərait yaradılıb. Zəngəzurun bir hissəsinin ermənilərə verilməsi ilə Naxçıvan bölgəsinin blokada şəraitində yaşamasının da əsası qoyulub.

Hələ 2014-cü il aprelin 8-də Naxçıvan MR-in yaradılmasının 90 illiyi münasibətilə Naxçıvan şəhərində keçirilən təntənəli mərasimdə çıxış edən Prezident İlham Əliyev Zəngəzurun ermənilərə verilməsi məsələsini belə qiymətləndirmişdir: "O vaxt xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məskənlərinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda, böyük türk dünyası iki yerə bölünürdü. Bu ədalətsizlikdir, bu, sağalmayan yaradır".

Onu da bildirək ki, Vətən müharibəsində tarixi qələbə təkcə torpaqlarımızın azadlığı ilə yekunlaşmadı. Həm də bir sıra tarixi ədalətsizliklər aradan qaldırıldı. Onlardan biri də 2021-ci il iyulun 7-də, yəni keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının 98-ci ildönümü günündə cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanın imzalanması oldu. Fərmana əsasən, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Laçın rayonlarını əhatə eddən Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bununla da uzun zamandan sonra ölkəmizdə Zəngəzur toponimi rəsmən həyata vəsiqə qazandı. Bu mənada Qarabağ və Şərqi Zəngəzurun çoxəsrlik bağlılığından danışanlar tarixi reallığa olduğu kimi baxmalıdırlar.

Ötən il baş tutan lokal xarakterli antiterror tədbirlərinin ildönümü yaxınlaşdıqca, Ermənistanda bu hadisələr barədə müzakirələr də qızışır. Sabiq prezident Serj Sarkisyann "Respublika" və milli təhlükəsizlik xidmətinin sabiq direktoru Artur Vanetsyanın "Vətən" partiyalarının 2021-ci ilin növbədənkənar parlament seçkiləri ərəfəsində yaratdıqları və hazırda qanunverici orqanda 7 deputat yerinə malik "Şərəfim var" adlı müxalifət fraksiyasının katibi Tiqran Abramyan da, necə deyərlər, xatirələr dəryasına baş vurub. Deyib ki, bir il əvvəl bu günlərdə Qarabağda "humanitar böhran" sərhədi (?) keçib: "Vəziyyət təkcə insanların məişəti baxımından ağır deyildi. Tədarükün fasilələrlə olduğu, ayrı-ayrı komandirlərin yaxınlıqdakı kəndlərdən əsgərləri üçün gündəlik yemək aldığı "müdafiə ordusu"nda da vəziyyət son dərəcə ağır idi. Orduda döyüş hazırlığından tutmuş gündəlik həyatı təmin etməyə qədər planlaşdırılan tədbirlərin 5-10 faizi yerinə yetirildi. Bütün bunlardan düz bir ay sonra, bütün "Artsax" və xüsusən də onun təhlükəsizliyinə cavabdeh olan strukturlar və bölmələr tamamilə tükəndikdə, Azərbaycan tədbirlərə başladı".

Abramyan Qarabağdakı xunta rejiminin çöküşünə gedən yolu tamamilə təhrif edərək, hələ də "humanitar böhran" şousundan yararlanmağa çalışıb. Halbuki, həmin günlərdə Azərbaycanın cəmi bir tələbi var idi: Qarabağdakı Ermənistan ordusunun bölmələri tərk-silah edilməli, Ağdam–Əsgəran yolu açılmalı və erməni əsilli vətəndaşlara humanitar yardımın bu yolla çatdırılması təmin edilməlidir. Abramyan isə bir siyasətçi, prosesləri yaxından izləyən şəxs kimi bütün bunları yaxşı bildiyi halda faktları təhrif etmək yolunu tutub.

Fraksiya katibi daha sonra Nikol Paşinyan iqtidarının fəaliyyətsizliyini tənqid edib: "Baxmayaraq ki, Ermənistan Respublikasının hökumət başçısı həmin günlərdə fiziki cəhətdən velosiped sürməklə məşğul deyildi, amma dövlətin situasiyaya reaksiyası bu gün nümayiş etdirilən davranışdan çox da fərqlənmirdi. Ermənistanın siyasi elitası ümumən "Artsax"ı nə gözlədiyini bilirdi, lakin nəinki yerindən tərpənmədi, əksinə, Azərbaycana "Artsax"la bağlı hərəkətlərə heç bir şəkildə reaksiya vermək niyyətində olmadığına dair siqnallar ötürdü".

Ümumiyyətlə, lokal xarakterli antiterror tədbirlərinin ildönümü yaxınlaşdıqca, Ermənistanda bu barədə danışanların da sayı artır. Onlar baş verən olayları öz düşüncə tərzlərinə uyğun şərh edirlər. Məsələn, "Alternativ layihələr" qrupunun üzvü Vahe Ovannisyan yazıb: "Bizim bütün fəlakətlərimizin kökündə strateji primitivliyimiz dayanır. Biz yaxınlıqda yerləşən Yaxın Şərq regionunda yeni gərginlik və partlayış təhlükəsinə, bütün qonşuların və düşmənlərin aktiv təmaslarına, onların açıq və kölgədə davam edən danışıqlarına, Putinin Bakıya səfərinə necə reaksiya veririk? Velosiped sürməklə, xaşlama bişirməklə, poeziya festivalı keçirməklə, məzuniyyətdən yavaş-yavaş qayıdan müxalifətin nə edəcəyini bilməməsi ilə?! Biz artıq Cənubi Qafqazın mənasız və ümidsiz əlavəsi kimi öz rolumuza öyrəşmişik. Bütövlükdə, bugünkü kollektiv vəziyyətimizi "xaşlama-xalq" adlandırmaq olar".

V.Ovannisyan qeyd edib ki, Azərbaycan BRICS-ə qoşulmaq istəyir, biz isə şeirlər oxuyuruq və ya oxucunu ələ salırıq. O əlavə edib ki, düz dörd il əvvəl, 2020-ci il müharibəsi öncəsi, sözün əsl mənasında, erməni cəmiyyətində bu cür qeyri-ciddi vəziyyət hökm sürürdü.

Göründüyü kimi, revanşist iddialar, "bəlkə də qaytardılar" xülyası Ermənistan cəmiyyətini ümisizlik girdabına, çaşqınlığa və dərin böhrana salıb. Bu vəziyyətdən yeganə çıxış yolu isə revanşist düşüncələrdən imtina etmək, Azərbaycanla səmimi şəkildə sülh istəmək və sülhün bütövlükdə, regiona gətirəcəyi faydalardan, o cümlədən iqtisadi imkanlardan yararlanmaqdır. Erməni cəmiyyəti bunu etmədikcə, indiki böhranlı vəziyyətdə hələ uzun illər qalmaqda davam edəcək.

*Səxavət HƏMİD*
*XQ*

# "ABŞ jurnalisti" "Artsax" terrorçularının ağuşunda nə gəzirdi?

## Ermənilərin satın aldıqları Lindsi Snellin davakar bəyanatları

**Son günlər şahidi olduğumuz faktlar "Axsaq atın kor nalbəndi" el məsəlinin az da olsa dəyişdirilməsini zəruri edir: "Axsaq erməninin sarsaq müdafiəçisi". İndi dünyanın bütün ölkələri nəinki öz ərazilərinə, hətta yerləşdiyi regiona kosmosdan nəzarət edə bilirlər. Yəni hansısa məsuliyyətsiz adamın meşə yanğınına səbəb olacaq hərəkətləri də göz qabağındadır, nəinki qoşunların şərti sərhəddə atəş pozulması.**

Azərbaycan Müdafiə Nazirliyi bir neçə gün əvvəl xəbər yaymışdı ki, Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 16-da saat 03:20 radələrində Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəşə tutublar. Bu məlumat yayılan kimi işğalçıların, terror və təxribat törətməkdən əl çəkə bilməyən Ermənistanın havadarları hər tərəfdən banlamağa başladılar.



Amerika Erməni Assambleyasının və ABŞ-dəki digər erməni təşkilatlarının vəsaiti hesabına dünyanı (əslində, dünyanı yox, ancaq ermənilərin məskunlaşdıqları ölkələri) gəzib dolaşan, özünü hər yerdə "Amerika hərbi jurnalisti" kimi qələmə verən Lindsi Snell dərhal düy vurdu ki, Azərbaycan öz planlı təcavüzlərinə haqq qazandırmaq üçün yenidən Ermənistanın atəşkəs rejimini pozmasını uydurur. Bəri başdan qeyd edim ki, bu adam müəmmalı qurumların agentidir və aşağıda o barədə söz açacağıq.

Onu da xatırladım ki, Lindsi Snell 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Artsaxda idi. Ondan əvvəl Suriyada, İraqda, Livanda, Türkiyədə və nəhayət, sonda Azərbaycan ərazisində olmuşdur.

Deyir ki, müharibə və münaqişə bölgələrində olmaq mənim vəzifə borcumdur. Məgər dünyanın ermənilər yaşamayan ərazilərində münaqişə yoxdur? Sən öz vəzifəni nə üçün Hindistan – Pakistan, Çin – Tayvan, şimallı-cənublu koreyalar arasındakı münaqişələrdə, Avropanın daxilindəki problemlərdə davam etdirmirsən? Çünki sənin pulunu verənlər getməli olduğun konkret ünvanları da göstərirlər. Elə olmasaydı, güllə altındakı Qarabağda nə işin var idi?

Xanım deməyə dilim gəlməyən Lindsi Snell, deyirsən ki, Suriyada, İraqda, Livanda, Türkiyədə ... münaqişələrin davam etdiyi çox ölkədə olmusan. Ancaq azərbaycanlıların ermənilərə olan nifrətini heç yerdə görməmisən.

İndi mən səndən soruşuram, ay bədnam qadın, biz İkinci Dünya müharibəsində faşistlərin törətdiyi faciələrdən də qat-qat ağır olan Xocalı soyqırımının baiskarlarını rəğbətlə qarşılamalıydıqmı? O faciəni ki, bir gecədə 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 sakin qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdi. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüşdü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Bütün bunlardan sonra insan qanı içməkdən həzz alan erməni vəhşilərini bağrımıza basmalıydıqmı?

Sən erməni mətbuatına verdiyin müsahibədə deyirsən ki, Xankəndində yaralanmış 13 yaşlı erməni uşağın və onun həlak olmuş 16 yaşlı qardaşının heç bir günahı yox idi. Serj Sarkisyanın və onun rəhbərlik etdiyi çaqqal sürüsünün məhv etdiyi xocalılı uşaq, qadın, qocaların hansı günahkar idi?

Sən şərəfsizcəsinə yazırsan ki, 44 günlük müharibədən sonra azərbaycanlılar Qarabağdakı erməni əmlaklarını dağıdırlar. Sən dünya səyyahlarının Xirosima ilə müqayisə etdikləri Ağdamın viranəliklərini görəndən sonra hansı haqla əmlakdan danışırsan? Sənin təmənna müqabilində müdafiə etdiyin ermənilər Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur adlı ərazilərindəki nəinki on minlərlə mədəniyyət, səhiyyə, elm, təhsil obyektini və mülki binaları, eləcə də bütün məscidlərimizi yer üzündən siliblərsə, tam dağıdılmamış məsciddə isə öz əcdadlarını gətirib saxlayırdılarsa, sən hansı vicdanla əmlakın müdafiə edilməli olduğundan söz açırsan?

Yuxarıda qeyd etdiyim agent məsələsinə qayıdaraq isə xatırladım ki, Lindsi Snell altı-yeddi il qabaq Suriya ərazisindən qeyri-qanuni yolla Türkiyəyə keçərkən saxlanılmışdı. O zaman Türkiyənin Hatay əyalətinin rəhbəri olan Ərcan Topaca mətbuata bəyanatında demişdi ki, Snell ölkəmizin sərhədlərini pozduğuna görə tutulmuş və həbs edilmişdir. Türkiyə mətbuatı həmin il sübut-dəlillərə əsaslanaraq yazırdı ki, Lindsi Snell casusdur.

Lindsi bu ilin martında ermənilərin "Aysor.am" saytına verdiyi müsahibədə deyirdi ki, artsaxlıların Dağlıq Qarabağa qayıtması haqqında Azərbaycan rəhbərliyinin verdiyi vədlər unudulub.

Əvvəla, Artsax da yoxdur, Dağlıq Qarabağ da. Hər ikisi gorbagor olub. İkinci Azərbaycanın verdiyi vədlərin heç birindən yayınmadığını bütün dünya bilir. Qarabağ erməniləri də həmçinin. Biz sözümüzün üstündə dururuq. Terrorçuluqla, qaniçənliklə məşğul olmayacaqlarsa, insan kimi yaşaya bilirlərsə, buyurub qayıtsınlar. Onu da bilirik ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlığını qəbul edərək ölkəmizə qayıdardılar. Ancaq onları ABŞ və Fransa, eləcə də Lindsi Snell kimiləri səhv yola istiqamətləndirdilər.

Ona görə də bu "hərbçi jurnalist" şinelində olan agent Lindsi Snellə xatırladırıq ki, bundan sonra Azərbaycana heç bir təsir göstərə bilməyəcəksiniz. Törətdiyiniz bütün bəd əməllərin zərərdidəsi Ermənistan olacaq. Onlara da pislik etdiyiniz yetər. Yazıqdırlar. Əl çəkin. İmkan verin bu bədbəxt xalq öz yolunu tutub, öz həyatını qursun.

*İttifaq MİRZƏBƏYLİ*

Replika

# Gözlənilən sonluq

## Menendezin acı aqibəti bütün anti-Azərbaycançılara görk olmalıdır

**Korrupsiyada təqsiri sübuta yetirilən ermənipərəst senator Bob Menendez bir də müstəqil namizəd kimi seçkidə iştirak edə bilməyəcək. Elə bu səbəbdən ispan əsili rüşvətxor hüquqşünas siyasi karyerasını da başa vurduğunu elan edib. Bu gün onun tərcümeyi-halına və xidməti dosyesinə senator postunu birdəfəlik tərk edəcəyi gün kimi yazılacaq. "Amerikanın səsi" radiosunun məlumatda belə deyilir.**



Oxucuların yadına salaq ki, iyulun ortalarında Nyu-York Məhkəməsinin federal münsiflər heyəti Menendezi "rüşvətxorluqda, ölkə əleyhinə xarici agent kimi fəaliyyət göstərməkdə və ədalət mühakiməsinə mane olmaqda" təqsirini sübuta yetirərək uzunmüddətli həbsxana cəzasına məhkum edib. İttiham aktına görə, Menendez Konqresdəki nüfuzundan istifadə edərək, "üç iş adamından yüz minlərlə dollar nağd pul, qızıl külçə, avtomobil və daşınmaz əmlakın müqabilində Misirə yardım üçün milyardlarla dollar ayrılmasını təmin edib".

Hələ aprel ayında "The New York Post" yazırdı ki, bütün bu sübutlar FTB-nin "senatorun 1,2 milyon dollar dəyərində olan evində" apardığı axtarış nəticəsində müvafiq strukturlar tərəfindən aşkar edilib. Bundan sonra məhkəmə Menendez, onun həyat yoldaşı, qısa dekolte geyindiyinə görə ərinin "ədəbsiz"dediyi erməni əsilli Nadine Arslanyan, eləcə də nyu-cersili üç iş adamı barəsində də hökm çıxarıb. Prokuror Paul Monteleoni yekun çıxışında vurğulayıb ki, bədnam senator bütün bu saxtakarlıqlarda aparıcı rolu oynayıb, onun "axçesi" Arslanyan isə cinayətkar xidmətlər üçün "ödənişlərin həyata keçirilməsində vasitəçi" olub.

ABŞ mediası xəbər verir ki, dələduz senatora oktyabrın 29-da hökm oxunacaq və "o, ömrünün qalan hissəsini həbsxana divarları arasında keçirməli olacaq". Bu, ermənipərəst senatorun Azərbaycana qarşı muzdlu siyasətinin acı nəticəsidir Ömrünün böyük hissəsini anti-Azərbaycançılıq fəaliyyətinə xərcləmiş senatorun haqq etdiyi son aqibəti ABŞ-nin erməni lobbisi və diasporu ilə "işbirliyi"ndə olan digər siyasətçiləri üçün dərs olmalıdır. Konqresin Nümayəndələr Palatasının üzvü, Ermənistanla iş üzrə komitəsinin həmsədri, "Azərbaycanın Ermənistana davam edən təcavüzü" barədə dəfələrlə danışan Frenk Pallonenin bundan dərs götürməyə daha çox ehtiyacı var. Hayların pulları ilə "danışan" bu başıbəla konqresmen Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı mövzusuna, erməni barbarların dinc soydaşlarımıza qarşı davamlı mina terroru məsələsinə heç vaxt toxunmayıb.

Əksinə, Azərbaycana qarşı ədalətsiz sanksiyaların tətbiqinə çağırışlar edən məhz cənab Pallone idi. Bu ilin aprelində Ermənistana hərbi yardım göstərilməsinin fəal təşəbbüskarlarından biri o idi. İndi cənab Pallone şlyapasını qabağına qoyub yaxşı-yaxşı fikirləşsin. "Menendez-geyt"-dən ibrət götürməli anti-Azərbaycan siyasətinin aparıcı lobbiçiləri – senatorlar Bencamin Kardin və Elizabet Uorren də özləri üçün müəyyən nəticələr çıxarmalıdırlar.

Aydın məsələdir ki, Menendez və onun erməni sevgilisinin "korrupsiya dosyesi" Avropa Parlamentinin keçmiş vitse-prezidenti Eva Kilinin adı ilə bağlı qalmaqalı yaxşı xatırlayan avropalı siyasətçilərin diqqətindən kənarda qala bilməzdi.

Azərbaycana qarşı ədalətsiz mövqe tutmaq heç kəsə başucalığı gətirməyib və belələri sonda çirkin əməllərinə görə layiq olduqları cəzalarını alıblar. Ermənin puluna satılmışları – istər ayrı-ayrı dövlət başçıları olsun, istərsə də müxtəlif ranqlı siyasətçilər, yaxud hüquqşünaslar olsun, – hamısını Menendez kimi, acı aqibət gözləyir. Bütün ermənipərəstləri oxşar sonluq gözləyir.

Bu hadisə ermənifob siyasətçilərin anti-Azərbaycan lobbiçilik fəaliyyətinin nə ilə nəticələnəcəyini əyani şəkildə nümayiş etdirdi.

*İ.HƏSƏNQALA*
*XQ*




# Azərbaycan tarixinin bir əsrlik mətbu salnaməsi

(əvvəli qəzetin 15, 16, 17, 18 avqust tarixli saylarında)

## Rəsmi qəzet – ictimai tribuna

Bütün qəzetlərin redaksiyalarına tapşırılmışdı ki, çap edilməyən yazıların səbəblərini imkan daxilində izah edə biləcək xüsusi rubrika yaratsınlar. "Kommunist" qəzeti bu üsuldan hələ 1923-cü ildən istifadə edirdi.

"Poçta qutusu" və "Cavablarımız" rubrikalarında yazıları dərc olunmayan müəlliflərə bunun səbəbi qısaca izah edilirdi. Məsələn, "Kommunist" qəzetinin 1923-cü il 16 may tarixli nömrəsində yazılırdı: "Yoldaş Şamilova: Sizin tamamlanmamış məqaləniz üç müxtəlif mövzunu – kooperativləri, torpaq işini və kəndlilərin həyatında iqtisadi siyasəti əhatə edir. Əgər yazılarınızı hər sahə üzrə ayrıca yazsanız və yazılarınızı tamamlasanız, dərc edərik". Başqa yazı: "Cavanşirdə – Yulduza: Sizin yazı imzasız olduğundan (yəni müəllifin soyadı, adı və ünvanı olmadığından) dərc olunmayacaq".

Məktublar bəzən təkrarçılığa, faktların olmamasına, yubanmasına, əsassızlığına və ya ictimai maraq kəsb etmədiyinə görə çap olunmurdu.

Təbii ki, bu və ya digər səbəbdən yazıların çap olunmaması fəhlə-kəndli müxbirlərinin fəallığının inkişafına müəyyən dərəcədə mənfi təsir göstərirdi. Müxbirlərin bir çoxu hətta redaksiyadan küsür və yazmağa xitam verirdi. Qəzet fəhlə-kəndli müxbirlərinin incikliklərinə yumorla yanaşır, onları yenidən ruhlandırmağa çalışır və əməkdaşlığı davam etdirməyə çağırırdı. Bəzən küsmüş müxbirlərə bayatılar, felyetonlar və şeirlər həsr edirdilər:

*Bundan sonra şu "Kommunist" qəzetəsinə bir xəbər*
*Yazmamağa and içmişəm, söz vermişəm özümə.*
*Nə barədə yazıramsa, düzəldib çap edirlər,*
*Yazdığımı çap etmirlər, baxmayırlar sözümə.*

Və ya:

*Demək bizdən küsmüsən, ay təcrübəsiz əməkdaş,*
*Əbəs, əbəs. Bu hərəkət yakışarmı heç sana?*
*Kəmsavadsan, yazdıqların düzəlməzsə, a yoldaş,*
*Yazı yazmaq üsuluyla olarsanmı aşina?*

Fəhlə-kəndli müxbirləri hərəkatı, bütövlükdə, həm müxbirlərin fəallığına, həm də onların vasitəsi ilə geniş xalq kütlələrinə böyük təsir göstərmişdi. Savadsızlığın ləğv olunması yolundakı təbliğat və təşviqat işlərində, nöqsanların aşakar edilməsində bu hərəkatın rolu əvəzedilməz idi. 1925-ci ilin ikinci yarısı və 1926-cı ilin birinci yarısında prokurorluq orqanlarının göstərilən dövr üzrə apardıqları təhqiqatların 50 faizi məhz kəndli müxbirlərinin mətbuatda dərc olunmuş yazılarına əsasən başlanılmışdır.

"Kommunist" qəzeti öz fəhlə-kəndli müxbirlərinə qarşı çox tələbkar idi. Məsələn, M(əmmədqulu) Əlixanovun imzası ilə dərc olunan "İşçi müxbirləri və növbəti vəzifələrimiz" adlı məqalədə deyilirdi ki, bizim imkanları məhdud mətbuatımız üçün vicdanlı və doğruçu müxbirlər lazımdır. "Müxbirlər arasında ləyaqətsiz ünsürlər" adlı məqalədə isə qəzet yazırdı ki, "sıralarımızı zərərli ünsürlərdən, mətbuatı öz qərəzli və şəxsi məqsədləri üçün istifadə edənlərdən təmizləmək lazımdır".

"Qotur müxbir – rədd ol sıralarımızdan" yazısında tələb olunurdu ki, yalançı müxbirləri çap olunmaq imkanlarından məhrum etmək, eləcə də onları xəbərdar etmək lazımdır ki, barələrindəki sənədlər prokurorluq orqanlarına göndəriləcək". Fəhlə müxbirləri Məcid Bağırov və Qədirovun davranışı ilə bağlı "Kommunist" qəzetinin Şubanı kənd fəhlə müxbirləri bürosuna məsələ çıxarılır. Onlar dəqiqləşdirilməmiş materialları qəzetə göndərmişlər və buna görə də cəzalandırılıb töhmət almışlar.

Elə hallar da olmuşdur ki, bəzi fəhlə-kəndli müxbirləri bir neçə yazı dərc etdirdikdən sonra lovğalanıb öyünməyə başlamış, insanları qəzetlərdə barələrində rüsvayçı yazılar dərc edəcəkləri ilə hədələmişlər. Məsələn, Lenin dairəsindən olan fəhlə müxbiri Hüseyn Fikri (təxəllüsü "İşçi müxbiri") belə davranışına görə fəhlə-kəndli müxbirlərinin yoldaşlıq məhkəməsinə cəlb olunmuş və 1926-cı il aprelin 30-da ona 6 ay müddətində qəzetdə çap olunmaq qadağan edilmişdi. Başqalarına ibrət olsun deyə, yoldaşlıq məhkəməsinin qərarı qəzetdə dərc olunmuşdu.

Bununla belə, qəzet tez-tez öz səhifələrində fəhlə-kəndli müxbirlərinin təqiblərdən və repressiyalardan müdafiə olunması məsələsini qaldırır, müvafiq instansiyalara müraciət edirdi. Azərbaycan K(b)P MK-nın yerlərə 12 yanvar 1923-cü il tarixli təmimnamə göndərməsinə, Zaqafqaziya XKS-nin 1924-cü ilin sonunda fəhlə-kəndli müxbirlərinin müdafiə olunması barədə dekret verməsinə baxmayaraq, onların təqibi davam edirdi. Müvafiq təşkilatlarda dəfələrlə kəndli müxbirlərinin təqib olunması, izlənilməsi, sıxışdırılması və döyülməsi məsələlərinə baxılmışdır. Belə hallar Lənkəran, Nuxa və digər qəzalarda baş vermişdi. Elə hallar da olmuşdu ki, nəinki partiya və sovet işçiləri, hətta qəza milis rəisi də kəndli müxbirlərindən tələb etmişdi ki, yazılarını qəzetə göndərməzdən əvvəl yoxlanılmaq üçün onun yanına gətirsinlər.

Kəndli müxbirlərinin kütləvi şəkildə təqib olunması 1923-cü ilin ikinci yarısından başlanılmışdı. Təqiblərin qarşısının alınması və günahkarların cəzalandırılması məqsədi ilə prokurorluq orqanları işə qarışdılar və onların nümayəndələri mətbuatda bu barədə çıxışlar etməyə başladılar. "Çoxlarına xəbərdarlıq. Prokuror nəzarəti və kəndli müxbirləri" məqaləsində Bakı şəhər prokurorunun müavini Məmmədəmin Ramazanzadə bütün təqibçilərə xəbərdarlıq edərək bildirirdi ki, "kəndli müxbirlərindən əl çəkin". O xatırladırdı ki, Cinayət Məcəlləsinin 88-ci maddəsinin 4-cü bəndinə əsasən, təqibçilər məsuliyyətə cəlb olunacaqlar, kəndli müxbirlərinin yazılarına diqqət yetirməyən və cavab verməyən rəhbərlər isə Cinayət Məcəlləsinin yuxarıda göstərilən, eləcə də 108-ci maddəsi ilə təqsirli bilinərək məsuliyyətə cəlb ediləcəklər.



Azərbaycan K(b)P BK-nin Rəyasət Heyəti 1924-cü il yanvarın 30-da partiya özəklərinin fəhlə-kəndli müxbirləri yazılarına nəzarət etmək cəhdlərini araşdırmış və onu qadağan etmişdir.

Qəzetin redaksiyası öz fəhlə-kəndli müxbirlərinə kömək etmək məqsədi ilə 1924-cü il iyunun 13-də Bakı Soveti inzibati şöbəsinin müdiri, Şəki və Bakı prokurorlarının iştirakı ilə müşavirə keçirdi və onlar hər bir konkret hal üçün konkret tədbirlər görürdülər.

Bu, o qədər ciddi bir məsələ idi ki, Azərbaycan K(b)P MK 1924-cü il sentyabrın 29-da "Kəndli müxbirlərinin təşkilatlanmasına dair tədbirlər və onlara qarşı hər hansı repressiyanın tam aradan qaldırılması haqqında" qərar qəbul etmişdi.

"Kommunist" qəzeti belə hesab edirdi ki, mətbuat səhifələrində dərc olunan hər hansı bir yazı və material bütövlükdə prokurorluğa rəsmi müraciət hesab olunur. Məhz buna görə də prokurorluq orqanları fəhlə-kəndli müxbirlərinin yardımından bəhrələnə və onları təqiblərdən qoruya bilər.

Kəndli müxbirlər də yerlərdə öz qüvvələrini birləşdirmək imkanları arayırdılar. Onlar birləşərək qəza kəndli müxbirləri bürosu yaratmışlar. Məsələn, Lənkəranda "Kommunist", "Bakinskiy raboçiy", "Kəndçi qəzetəsi" və yerli "Kəndçi qəzetəsi" ilə ümumi yığıncaqda qəza bürosunu yaratdılar. Qəza partiya komitəsi isə onlara qəza miqyasında təqiblərə qarşı qəzet kampaniyası aparmağa kömək etmişdi.

1924-cü ilin yazından başqa qəzalarda da belə bürolar yaradılmışdı. Bu onunla bağlı idi ki, həmin dövrdən etibarən kəndli müxbirlərinin təqib olunmasında yeni mərhələ müşahidə olunmaqda idi. Bununla əlaqədar olaraq AzMİK Rəyasət Heyəti bütün xalq komissarlıqlarına, icraiyyə komitələrinə, Bakı Sovetinə, NMSSR və DQMV MİK-lərinə təmim sərəncamı göndərərək, yerli bürokratlara qarşı ən ciddi tədbirlərin görülməsini tələb etmişdir.

"Kommunist" qəzeti qərara almışdı ki, bürokratlara qarşı mübarizə aparsın və kəndli müxbirlərinin müdafiəsinə bütöv səhifələr həsr edirdi. Bunun üçün qəzetdə "Qəza və kəndli müxbirlərinin müdafiəsinə" rubrikası açılmışdı.

Bir sıra hallarda yerli partiya və sovet rəhbərlərinin göstərişi ilə kəndli müxbirləri həbs olunur və ya tutduqları vəzifələrindən azad edilirdilər. Məsələn, Lənkəranda "Kommunist" qəzetinin kəndli müxbiri Məmmədəli İsmayılov həbs olunmuş və yalnız Azərbaycan K(b)P MK mətbuat şöbəsinin müdaxiləsindən sonra azadlığa buraxılmışdı. Maştağada "Kommunist" qəzetinin Azərbaycan LKGİ BK-nın Rəyasət Heyətinə məktubla müraciətindən sonra vəzifəsindən azad edilmiş kəndli müxbiri işinə bərpa edilmişdi. İndiki Bakıxanov qəsəbəsində "Oradakı" təxəllüslü fəhlə müxbiri təqibə məruz qalmışdı. Bununla əlaqədar olaraq "Kommunist" qəzeti prokurora müraciət etmiş və lazımi yardım almışdı. Təqib olunan fəhlə müxbiri Nağı Cəfərov isə sonralar ən yaxşı müxbirlərdən biri olmuş və redaksiyanın vəsaiti hesabına Moskvaya ali jurnalist təhsili almağa göndərilmişdi.

Bəzən ayrı-ayrı vəzifəli şəxslər fəhlə-kəndli müxbirlərinin adlarını açıqlamaqla bir tərəfdən onların təqib olunmalarına, digər tərəfdən isə cinayətlərin gizlədilməsinə şərait yaradırdılar. Ona görə də Ali Məhkəmə belə fəaliyyətin cinayət hesab edilməsi və günahkarların Cinayət Məcəlləsinin 104-cü maddəsinin "b" və 117-ci maddəsi ilə cəzalandırılması barədə qərar qəbul etmişdi.

## Mətbu sözün kəsəri

İlk vaxtlar həm respublika rəhbərliyində, həm də yerlərdə "aparıcı qəzet" kimi "Bakinskiy raboçiy"ə üstünlük verirdilər. "Kommunist" qəzetinə isə ikinci dərəcəli qəzet kimi baxır, onun səhifələrində qaldırılan məsələlərə həssas reaksiya vermirdilər. Yalnız redaksiyanın yorulmaz, çox çətin və davamlı səyləri nəticəsində vəziyyət tədricən dəyişməyə başladı. 1923-cü ildən etibarən "Kommunist" qəzetinin səhifələrində dərc olunan materiallar prokurorluq orqanlarının diqqətini cəlb etməyə başladı.

Respublika rəhbərləri əhaliyə müraciətlə qəzetdə tez-tez çıxış edirdilər. Məsələn, Bakı prokurorunun müavini Məmmədəmin Ramazanzadə "Zəhmətkeşlərin nəzərinə" adlı müraciətində bildirirdi ki, "indiyə qədər "Bakinskiy raboçiy"də olduğu kimi, bundan sonra "Kommunist" qəzetində dərc olunan yazılar və materiallar da diqqət mərkəzində olacaq və araşdırılacaqdır".

Azərbaycan K(b)P BK XII konfransı bütün təşkilatlardan məcburi qaydada türkcə "Kommunist" qəzetinə diqqət yetirmək tələb edən qətnamə qəbul etmişdi. Həmin qətnamə XIII konfrans tərəfindən də təsdiq olunmuşdu.

Qəzetin özü isə onu oxumayan bürokratlara pamflet və felyetonlar həsr edirdi. "Təəssübkeş" (Balaqədəş Səttaroğlu) imzası ilə yazılmış həmin felyetonlardan birinin bir parçasını oxucuların nəzərinə çatdırırıq:

*Yazılsa həqqində nə, heç etina eyləməz,*
*Çünki bilir doğrudur, "yalandır bu" söyləməz.*
*Bildigin eylər yenə, o, bir şeyi dinləməz,*
*Yaxşı bilirsən özün, müdirdir əvvəl cənab.*
*İncimə, məktubuna verməsə həzrət cavab.*
*Çünki savuqdur qanı, eyləməz əslən itab,*
*Bu barədə qəzetədə kimsəyə verməz cavab.*

Tənqidi yazılara cavab verənlər tez-tez orada mövcud olan balaca xətalara istinad edir, "əsas məsələləri unudaraq" cavablarını əsassız təkziblər şəklində tərtib edir və tezliklə dərc olunmasını tələb edirdilər. Məsələn, B(ağır) Hacızadənin imzası ilə dərc olunmuş "Cavablar və cavab yazanlar haqqında" məqalədə belələrinə xatırladılırdı: "Həm yazılar, həm də cavablar müvafiq təşkilatların işlərinin yaxşılaşdırılması və sağlamlaşdırılması məqsədi ilə çap edilir. Ona görə də hər cür üsulla özünü doğrultma cəhdlərindən əl çəkib, çatışmazlıqları aradan aqldırmaq lazımdır".

## Xarici əlaqələr

Qəzetin respublikanın bütün qəzalarında olduğu kimi, Cənubi Qafqaz və SSRİ-nin dəgər respublikalarında, eləcə də bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi. Moskva müxbiri kifayət qədər böyük jurnalistika təcrübəsinə malik olan Əliəkbər Heydərli idi. Fəhlə-kəndli müxbirlərinə yardım məqsədi ilə o, hələ 1923-cü ildə "Qəzetə və müxbirləri" adlı kitabça da nəşr etdirmişdir. Tiflis müxbiri Ə.Qərib (Əliəkbər Abbasov) – "Yeni fikir" qəzetinin müxbiri idi. Dağıstan müxbiri Səid Nizami idi.

Qəzet çalışırdı ki, dünyada baş verən hadisələr barədə informasiyanı öz oxucularına daha tez çatdırsın. Teleqraf və radio dalğaları ilə gecə saat ikiyədək müxtəlif agentliklərdən alınan informasiya qəzetin səhər nömrələrində öz əksini tapırdı. Bundan əlavə, qəzet xaricdə nüfuz sahibi olan və öz ölkələrinin rəhbər dairələrinə əli çatan, onların Şərq siyasətindən yaza bilən siyasi xadimləri və ya jurnalistləri axtarıb tapmağa çalışır, onlarla əlaqə yaradırdı.

Qəzet 20-dən artıq xarici ölkənin jurnalistləri ilə əməkdaşlıq edirdi. Yaponiya üzrə xüsusi müxbir Yaponiya KP MK-nın Baş katibi Sen Katayama, Böyük Britaniya üzrə müxbir ölkə parlamentinin üzvü Valton Nyubold (o, öz yazılarını Leninqrad dənizçilərinin vasitəsi ilə "Trud" qəzetinə göndərirdi, oradansa yazı Bakıya "Kommunist" qəzetinə çatdırılırdı), Fransa və Cənubi Avropa ölkələri üzrə Lui Joğe, J.Dorio, Pyer Russe, Afrika üzrə – Eyvon Conson, Türkiyə üzrə – M., İran üzrə – "Şirazi", "Durnəvis" ("Uzaqdan yazan"), V.Petrin, Belçika üzrə – Benniqhauzen, Hindistan üzrə – A.Daqas, Almaniya üzrə – Otto Mareşke (Kominternin katibi), H.Menşi, Amerika üzrə – İ.İ.Amter və s. idi.

Qəzetin təşəbbüsü ilə "Kommunist"in fəhlə-kəndli müxbirləri "Freiheit" ("Azadlıq") alman qəzeti ilə dostluq əlaqələri yaratmışdılar. Alman qonaqlar Bakıya gəlmiş, "Kommunist" qəzetinin fəhlə-kəndli müxbirləri ilə görüşmüş və onlarla birgə konfrans keçirmişlər.

## Əski əlifbalı ilk linotip

Qəzetin əməkdaşlarının iş şəraiti son dərəcə çətin və gərgin idi. Buna işarə edən müəllif "Əbü-l-hövl" (S.Məlikov) "Biz necə işləyirik?" məqaləsində yazırdı: "Redaksiya işlərini yerinə yetirməkdən əlavə biz həm də tərcüməçilik edirik. Tərcüməçilər də tərcümə edirlər! "Azərtac" rusca 30 səhifəlik informasiya göndərib, məsul işçilər – türklər də 150 səhifəlik 15 məqalə göndəriblər – hamısı da rusca, ixtisar etməyə də icazə vermirlər. Müxbir Mir Abbas (Mirbağırov) 6 intervü gətirib, hamısı da rusca. Bütün redaksiya tərcüməçilər kontorasıdır. Bax biz belə işləyirik".

Yuxarıda deyildiyi kimi, qəzetin bütün mətni əl ilə yığılırdı, çünki ərəb əlifbası ilə sətri mətn yığan linotip hələ ixtira olunmamışdı. Mətn yığanların əməyini yüngülləşdirmək məqsədi ilə Azərbaycan K(b)P MK Almaniya və Fransa ilə belə linotiplərin yaradılması haqqında danışıqlar apardı. Amma layihələr Azərbaycan dilinin tələblərinə cavab vermədiyindən həmin ölkələrdə veriləcək sifarişlər ilk başlanğıcda ləğv edildi.

Qərara alındı ki, ABŞ-la danışıqlar aparılsın. Bu məqsədlə "Kommunist"in redaktoru Ruhulla Axundov və "Bakinskiy raboçiy"in redaktoru Lifşits ABŞ-a ezamiyyətə göndərildilər. "Kommunist" qəzeti üçün ərəb ədifbası ilə sətri mətn yığan linotiplərin hazırlanması 1925-ci ilin yazında başa çatdı. Mövcud qüsurlar sifarişçi və istehsalçının ümumi qüvvəsi ilə aradan qaldırıldı.

Bu, dünyada ərəb əlifbası ilə sətri mətn yığan ilk linotip idi . Müsəlman Şərqində ərəb qrafikası ilə ilk sətri mətn Sovet Azərbaycanının sifarişi ilə yaradılmış linotipdə və Azərbaycan dilində yığılmışdı. İlk mətn isə 1925-ci il mayın 5-də S.İnqulovun bolşeviklərin mətbuat günündə çap olunmuş "Lenin və mətbuat" adlı məqaləsi idi.

## Anadilli avanqard nəşr

"Kommunist" qəzeti maddi vəsait sarıdan da çox korluq çəkirdi. Qəzetə əsaslı yardım göstərilməsi üçün hələ R.Axundovun göndərdiyi ərizəyə uyğun olaraq Azərbaycan K(b)P BK Rəyasət Heyəti 1922-ci il aprelin 20-də "Bakinskiy raboçiy" qəzetinə və bütün rusdilli partiya və sovet orqanlarına təklif etdi ki, sərəncamlarında olan hər cür informasiyanı türkcə qəzetlərə də, o cümlədən "Kommunist" qəzetinə də göndərsinlər.

Azərbaycan K(b)P MK Rəyasət Heyəti isə özünün 1922-ci il 3 iyul tarixli iclasında qərara almışdı ki, "Kommunist" qəzetinin əməkdaşlarının məvacibi "Bakinskiy raboçiy"in əməkdaşlarının məvacibinə bərabərləşdirilsin. Bu barədə XKS və AzMİK-ə vəsaitin ayrılması üçün tapşırıq verildi. Bu məsələyə XKS-nin 1922-ci il dekabrın 26-da keçirilmiş iclasında da baxılmış və müsbət həll olunmuşdu.

Amma bütün bunlar yalnız müvəqqəti olaraq redaksiya əməkdaşlarının məvacibinin verilməsini təmin edib. Qəzetin nəşri ilə bağlı xərclər isə artmaqda davam edirdi. Məsələ burasındadır ki, göstərilən illərdə "Bakinskiy raboçiy" linotip üsulu ilə yığılırdı. "Kommunist" qəzetində isə bütün hərflər və hətta sözlərin arasındakı boşluqlar belə, əl ilə yığılırdı ki, bunun üçün də böyük yığıcılar kollektivi işə cəlb edilmişdi. Ona görə də qəzet naşirlərə xeyli borclu qalmışdı. Bundan əlavə, MK və XKS-nin yuxarıda göstərilən qərarlarına baxmayaraq, XKS-dən redaksiyaya 1923-cü ilin mart-iyun aylarının kəsirlərini ödəmək üçün ayrılmış vəsait – 100 min rubl qızıl pul redaksiyanın büdcəsinə köçürülməmişdi.

Elə bu səbəbdən də redaksiya növbəti dəfə Azərbaycan K(b)P MK-ya yardım üçün müraciət etmişdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilində nəşr olunan "Kommunist" qəzetinə qısqanclıqla yanaşan, rəhbərləri qeyri-azərbaycanlı olan başqa təşkilatlar da, xüsusilə də "Azneft", "Mədənçilər ittifaqı", "Neft fondu", "Bakı Soveti" müxtəlif fəndlərə əl ataraq qəzet üçün nəzərdə tutulan vəsaiti verməkdən yayınırdılar. Bakı Sovetinin sədri Krılov isə Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda birbaşa göstərmişdi ki, türkcə "Kommunist" qəzetinə bir qəpik də pul ödəməyəcək.

Respublikanın XKS-i 1924-cü il oktyabrın 28-də qərara almışdı ki, rəsmi məlumatlar "Kommunist" qəzetində də dərc olunsun və onlar qəzetə əlavə ediləcək "Hökumətin əmr və qərardadları"nda yerləşdirilsin. Bu məqsədlər üçün vəsait XKS tərəfindən aylıq subsidiya şəklində 1400 rubl həcmində verilməli idi.

Onu da qeyd edək ki, "Kommunist" qəzetindən fərqli olaraq "Bakinskiy raboçiy"ə yardımlar artıqlaması ilə vaxtlı-vaxtında ayrılırdı.

Bu məsələ dəfələrlə Ümumittifaq K(b)P Zaqafqaziya Nəzarət Komissiyasının və Azərbaycan K(b)P MK-nın iclaslarında araşdırılmışdır. Müəyyən edilmişdir ki, "Bakinskiy raboçiy" qəzeti ona edilən bir sıra xəbərdarlıqlara, göstərişlərə və direktivlərə baxmayaraq, redaksiya onun üçün müəyyənləşdirilmiş smetaya sığmamış, aidiyyəti orqanların göstərişlərini heç vaxt yerinə yetirməmişdir.

"Bakinskiy raboçiy" qəzetinin Azərbaycan gerçəkliyinə laqeyd münasibəti "Kommunist" qəzetinin səhifələrində dəfələrlə tənqid olunmuşdu. AzMİK-in katibi Tağı Şahbazinin (Simürğ) 7 aprel 1924-cü il tarixli "Mətbuatımıza yeni nəzərlər" məqaləsində deyilirdi: "Bakinskiy raboçiy"ə yalnız qıraqdan baxıldıqda bəlli olur ki, o Azərbaycan mərkəzinin orqanıdır. Belə ki, qəzetin 23 mart tarixli 65 sayında, 31 mart tarixli 71 sayında, 1 aprel tarixli 72 sayında və s. Azərbaycan həyatına dair (Bakısız) 10-15 sətirlik ikinci dərəcəli yazı – telefon xəttinin çəkilməsi və s. bu kimi məlumat dərc edilib. Onun səhifələrində kənd təsərrüfatı həyatına dair heç nə yoxdur. Azərbaycan kəndi yalnız ərzaq vergisi toplanan zaman yada düşür".

Bir məsələni də qeyd etməyi gərəkli bilirik. "Kommunist" qəzeti əski əlifba ilə nəşr olunduğundan, tədqiqatçıların bir qayda olaraq, rusca əlçatan sayılan "Bakinskiy raboçiy" qəzetinin çox da dürüst olmayan, əksər hallarda isə təhrif olunmuş və yarımçıq materiallarından "bəhrələnirlər". Tariximizi daha düz, təhrifsiz çatdıran "Kommunist" qəzetini isə əksəriyyət oxuya bilmir.

İlk rəsmi dövlət qəzetimiz olan "Azərbaycan"ın materiallarının latın qrafikası ilə nəşr edilməsi həmin dövrün öyrənilməsi üçün geniş imkan yaradır. Bu qəzetin davamı olaraq nəşr edilmiş ikinci avanqard "Kommunist" qəzetinin ərəb əlifbası ilə çıxmış 9 illik toplusunun da yeni əlifbaya çevrilməsi o dövrün ictimai-siyasi, sosial-mədəni mənzərəsini öyrənməyi geniş auditoriya üçün əlçatan edərdi.

Sonda bir daha vurğulamaq istəyirik ki, anadilli gündəlik "Kommunist" qəzeti – kommunist ideologiyasının sərt tələbləri altında fəaliyyət göstərsə də, həmişə milli maraqlara sadiq qalmışdır. 105 illik qocaman qəzetin 71 illik fəaliyyəti həmin dövr həyatımızın ən əhatəli, rəngarəng və canlı mənzərəsi, misilsiz mətbu salnaməsidir.

**Elmar MƏHƏRRƏMOV,**
**tarix üzrə fəlsəfə doktoru,**
**AMEA Tarix və Etnologiya İnstitutunun**
**aparıcı elmi işçisi**

Rəşad Məcid – 60

# Qələmin çağdaş ziyalılıq örnəyi

**Jurnalistikamızın və ədəbiyyatımızın tanınmış nümayəndəsi, Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyi sədrinin müavini, Əməkdar jurnalist Rəşad Məcidin 60 yaşı tamam olur. Sənədli və bədii yaradıcılıqda istedadlı qələm sahibi kimi tanınmış, müstəqillik dövrünün ilk demokratik nəşrlərindən olan “525-ci qəzet”in təsisçisi və baş redaktoru, neçə-neçə publisistik və şeir kitabının müəllifi Rəşad Məcidi ölkəmizdə kiməsə tanıtmağa ehtiyac yoxdur.**



Kütləvi auditoriyaya yönəlik sözün ictimai dəyərini və bədii siqlətini yüksəltməyə 40 ildən artıq bir dövrdə samballı töhfələr verən həmkarımızı onun orijinal yaradıcılığı və əhatəli ictimai fəaliyyəti cəmiyyətə iri planda təqdim edib. Xalq şairi Məmməd Araz Rəşad Məcidin dəyərli yazar obrazını illər öncə belə düsrurlaşdırmışdı: “Xalqımıza belə oğullar lazımdır –vətənpərvər, ziyalı, dövlətçiliyimizi sevən, dövlətçiliyimizi qorumaq üçün canından keçə bilən oğullar. Rəşad belə oğuldur”.

Rəşad Məcidi ölkəmizdən kənarda yaşayan ziyalılarımız, bütövlükdə, Dünya azərbaycanlılarının ictimai fəal kəsimi də yaxşı tanıyır. Onlardan biri də 40 ildən bəri Moskvada yaşamaq taleyi nəsib olan yazıçı-jurnalist kimi mənəm. Biz Rəşadla BDU-nun jurnalistika fakültəsində bir neçə kurs fərqi ilə eyni vaxtda təhsil almışıq. İlk yazılarından öz üslubu və orijinal mövzuları ilə seçilirdi. Sonrakı illərdə onun yaradıcılığı və media quruculuğundakı fəaliyyəti daim yüksəlişdə olub.

Mən bu prosesi ardıcıl və diqqətlə izlədiyimdən həmkarımın yubileyində deməyə xeyli sözüm var. Bilirəm ki, gözəl şairimiz Məmməd Araz kimi və onlarca dəyərli insanların dediyi sözlərdən sonra mənim işim çətin olacaq. Lakin təəssürat və mülahizələrimi yığcam ifadə etməyə çalışacağam. Son 10 ildə Vətənimizə daha çox gəlib-gedirəm, kitablarım çap olunur, sosial şəbəkələr isə coğrafi uzaqlığı yox edib, fiziki məkan anlayışını dəyişib. Bu virtual əlçatanlıq Rəşad Məcidi daha yaxından tanımağıma imkan yaradıb.

Rəşad müəllimin bir qərinədən bəri rəhbərlik etdiyi "525-ci qəzet"lə əməkdaşlığa başlayanda onu yaradıcı əməkdaşlıqda tanımaq üçün başqalarından soraqlamışam, necə insan, necə qələm adamı olduğunu bir daha dürüstləşdirmişəm. Müstəqil qəzetin baş redaktoru kimi Rəşad Məcid barədə mənə etirazçı, heç kimi bəyənməyən yazıçılardan tutmuş, ədəbi mühitin ağsaqqallarına qədər çox adam öz təqdimatını çatdırdı, müxtəlif mətləblər anlatdı.

Fikirləri, dəyərləri bir-birindən yerlə-göy qədər seçilən bu adamların hamısının təsvirində eyni orta xətt keçirdi: "Rəşad müəllim mərd adamdır. Heç kimə pislik eləməz. İstedadlı adamlara mənfi münasibəti yoxdur. Əksinə, kimdə işıq görsə, çalışar ki, əlindən gələn köməyi eləsin. Rəşad müəllim qələm adamına yalnız istedadına görə qiymət verir. O, tənqidə açıq adamdır, bədxahının da əlini sıxır, umacağını cavablandırır. Çalışır ki, ilişənin yolunu açsın”.

Rəşad Məcidin bioqrafiyası bu deyilənləri artıqlaması ilə təsdiqləyir. Müxtəlif mükafatlar, adlar, səfərlər, təqdimatlar zəngin bir ədəbi-publisistik karyeranın yekunu kimi göz önündə canlanır. Mən cəmiyyətin də, ictimai tərbiyənin də insan xasiyyətinə göstərdiyi təsirə inanıram. Amma psixoloqlar deyirlər ki, insanın mahiyyəti 7 yaşına qədər gördükləri, öyrəndikləri, yaşadıqları ilə formalaşır. O yaşa qədər nə görübsə, necə görübsə insanın xəmiri onunla yoğrulur.

Rəşad Məcid kifayət qədər imkanlı ailədən gəlib. Yaxınlarının, onu tanıyan insanların dediyinə görə, ədəbiyyata, publisistikaya qarşısıalınmaz sevgidən gəlib. Yaxşı bir iş adamı, biznesmen olmaq imkanına daha üstün ikən jurnalistikanı, poeziyanı seçib. Yazıya, kitaba, şeirə heç vaxt imkan, pul qazanmaq yolu kimi baxmayıb. Səmimi bir sevgi ilə bağlanıb sözə, qələmə.

**Onun yaradıcılığına və həyat tərzinə yaxından bələd olan Əməkdar jurnalist Tahir Aydınoğlunun dedikləri:**

– Rəşad Məcid özü-özünü yetişdirib yüksəltmiş insandır. O, maddi təminat içərisində doğulub böyüsə də, maddi varidata yox, mənəvi zənginliyə təşnəliklə yaşayıb və irəli gedib. İstedadlı və zəhmətkeşdir. Açıq və işıqlı şəxsiyyətdir. Vətən sevgisi və ictimai fəallığı onu ikiqat yüksəldir. Daim çoxluğa qarışmaq həvəsi ilə çalışır. Onun iki böyük uğuru var. Birincisi, ilk demokratik nəşrlərdən biri olan “525”i azad, xəlqi və elitar nəşrə çevirib bugünədək yaşatmaq, media tariximizdə xüsusi yer tutan qəzet kimi məşhurlaşdırmaq. İkincisi, jurnalistikanı ədəbi aləmlə qovuşdurub öz fəaliyyətində yeni bir keyfiyyətə çevirmək.

Bir sözlə, Rəşad Məcid qələmlə mübarizə meydanında yaxşı nə varsa, böyük Zərdabi demiş, onun “qədərinin müruri-zamanla çoxaldılması”na xidmət edən yaradıcı xadimdir. Xalqın və dövlətin, eyni zamanda, hörmət və rəğbətini qazanmaq çox az adama qismət olur. Rəşad Məcid bu azlıqda zənginlik qazanıb – mənəvini maddiyyata çevirməyi bacarıb.

Həmkarımız haqlıdır: Rəşad Məcidin istedadlı insanlara, sözün qədrini bilənlərə, yazısı dəyərli olanlara sevgisi, qayğısı da məhz həyatın gözəlləşməsinə sözlə xidmət etmək amalından qaynaqlanır!

Hər zaman ümid yeri olasınız, Rəşad müəllim! Hərəsi bir dəyərə, fikrə inanan o qədər fərqli insanların ortaq sevgi ünvanı olmaq, bu qədər insanın rəğbətini qazanmaq asan deyil. Ədəbiyyat, jurnalistika cəbhəsində köməyə ehtiyacı olanlara göstərdiyiniz diqqət-qayğıya görə çox sağ olun!

Bəzən etmədiklərimizə, yazmadıqlarımıza yenidən qayıtmaq fikrinə düşürük. Bəlkə də, Rəşad müəllimin heyifsiləndiyi işlər, yarımçıq qoyduğu yazılar olmayıb. Zamanında nə bacarıbsa edib, nə düşünübsə sətirlərə töküb.

Bu gün isə 60 il əvvəl onun dünyaya göz açdığı təqvim səhifəsidir. Bu gün ötənlərin yekunu və yeni başlanğıcdır. Rəşad Məcid bu ömür keçidindən daha gözəl, müdriklik müjdəli illərə qədəm qoyacaq. Bəli, haqlı deyirlər ki, insan həyatına müdrikliyi, dərin düşüncələri 60 yaş gətirir. Ən doğru qərarları bu yaşda verir insan. Necə deyərlər, düşünüb yaşamağa başlayır insan.

Rəşad müəllim, siz də bu gün yenidən gəlirsiniz həyata. Yeni yollar, növbəti əməllər, daha xoş arzular gözləyir sizi. Artıq gənclikdəki kimi dağ döşündə, çığırlarda, çətinliklər ağuşunda deyil, uğurlar zirvəsindən baxırsınız həyata. İndi Şuşanın, Kəlbəcərin, Laçının oğullarımızın qanı bahasına azadlığına qovuşmuş dağlarının, təbiətinin yeni mənalandırmaları gözləyir sizi. Həsrət ilə illərlə yanıb-yaxıldığımız Qarabağın indiki dirçəliş, qarşıdakı yüksəliş günləri sizi çağırır, yeni yazılarınızı gözləyir.

Nəhayət, fikirləşdim: nə hədiyyə edə bilərəm 60 yaşınıza? Düşündüm ki, yazarın hədiyyəsi ancaq gerçəyi söyləyən sözdür. Həmkarımıza yubiley töhfəmiz sevgimizi, dəyərimizi cansağlığı, yeni uğurlar diləməklə çatdırmaqdır. Bir də, həmişəki kimi, xeyirxah, yüksək könüllü olun! İnanırıq ki, yenə sadə, gülərüz olacaqsınız! Bir 60 da yaşayasınız, ürəyinizdən keçənlərin hamısına çatasınız!

**Ulduz QASIM,**
**yazıçı-publisist**

**Moskva**

# Zəngin mədəni irsimiz turizmin inkişaf qaynağıdır



**Dövlət Turizm Agentliyinin 6 aylıq məlumatında qeyd olunur ki, ötən dövrdə qurumun tabeliyində olan qoruqları 305 min 376 nəfər ziyarət edib. Ötən ilin eyni dövrü ilə müqayisədə bu, (201 min 138 nəfər) 52 faiz artım deməkdir. Qoruqlara gedənlərin 218 min 967 nəfəri xarici ziyarətçidir. Bu da ötənilki göstəricilərlə müqayisədə 78 faiz artım deməkdir.**

**Ümumiyyətlə, Azərbaycanın mədəni turizm marşrutlarına maraq hansı səviyyədədir? Turizmin bu növünün inkişafına əngəl yaradan səbəblər nələrdir?**

Mədəni irsin idarə edilməsi sahəsində Azərbaycanda 4 məsul dövlət qurumu var: Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, “Şuşa şəhəri” Dövlət Qoruğu İdarəsi. Tarixi resurslar birbaşa mədəni turizm məhsulu kimi başa düşülməməlidir. Lakin bu resurslardan səmərəli istifadə etməklə, turizm məhsulu yaratmaq mümkündür. Tarix-mədəniyyət abidələri və qoruqların turizm şəbəkəsinə cəlb olunması böyük əhəmiyyət daşıyır. Xarici səyahətçilər tarixi abidələrimizə daha çox maraq göstərir. Azərbaycana üz tutan səyahətçilər də, ilk növbədə, belə tarixi məkanların ziyarətinə üstünlük verirlər.

Yaşı əsrlərə dayanan məkanların turizm sahəsinə sürətli inteqrasiyasını təmin etmək dövlətimizin əsas məqsədləri sırasındadır. Həyata keçirilən tədbirlərin nəticəsi göstərir ki, bu istiqamətdə artıq müəyyən irəliləyişlərə nail olunub. Regionlarda tarixi məkanlara turistlərin ziyarətini təşkil etmək üçün yol infrastrukturunun qurulması, təhlükəsizlik, yüksək servis xidmətləri, rahat hərəkət kimi məsələlər nəzərə alınmalıdır. Bundan sonra həmin tarixi obyektləri turizm marşrutu kimi təbliğ etməyə imkanlar yaranır. Adını qeyd etdiyimiz qurumların bu sahənin inkişafı üçün koordinasiyalı şəkildə əməkdaşlıq etmələri də zəruridir.

**Turizm üzrə ekspert Ceyhun Aşurov hesab edir ki, Azərbaycanda mədəni turizm marşurutları ən çox bölgələri əhatə edir:**



– Ölkəmizin kifayət qədər mədəni turizm potensialı var. Abidələr və qoruqlar xalqımızın keçmişdən bu günə gəlib çatan mədəniyyətini özündə ehtiva edir. Vətənimizə üz tutan turistlər istəyirlər ki, ölkədə mövcud olan bütün turizm məhsullarından istifadə etsinlər. Buraya sağlamlıq, dağ, mətbəx, mədəni turizmlər və digər səyahət növləri daxildir. Turizmin bir çox sahələrində olduğu kimi, mədəni marşrutlarda da səyahətçi məmnunluğu yaratmalıyıq. Tarixi abidələri və qoruqları görməyə gedən turist qrupları ölkə tarixi ilə yaxından tanış olur, mədəniyyətimiz barədə bilgilər əldə edirlər.

Müşahidələr göstərir ki, bu gün turistlər tarixi abidələrlə daha yaxından maraqlanırlar. Biz də bunlara əsasən, sözügedən sahənin tanıdılmasını yüksək səviyyədə qurmalıyıq. Bakı, Şəki, Qəbələ və işğaldan azad edilmiş rayonlarımızda mövcud abidələri mədəni turizm marşrutları kimi gələn turistlərə düzgün təqdim etməklə, biz ölkəmizin tarixini, mədəniyyətini təbliğ etmiş oluruq. Turizmin daha da inkişafı üçün zəruri addımlar atmalıyıq. Ölkəmizdəki abidələrdən turizm məqsədi üçün lazımi səviyyədə istifadə etsək, daha çox turist cəlb edə bilərik.

**Ölkəmizdə mədəni və etnoqrafik turların təşkilinə böyük ehtiyac duyulduğunu deyən turizm üzrə ekspert Ruslan Quliyev bildirdi ki, hələ ki, mədəni turizm sektorunun inkişafına dəstək imkanları öyrənilir, iqtisadi faydalılıq əmsalı dərindən araşdırılır:**

– Yanardağ qoruğu və Atəşgah məbədi il ərzində 200 mindən çox turisti qəbul etmək imkanına malikdir. Digər mədəni irs nümunələrinin də səyahətçilərin nümayiş obyektlərinə çevrilməsi üçün məqsədyönlü planlar hazırlanmalıdır. Sahənin turizm imkanları daxilində arzuolunan səviyyəyə çatdırılması mədəniyyətimizin təbliği baxımından da geniş imkanlar yaradır. Yəni digər ölkələrdə olduğu kimi, turizmin bu növündən bizdə də mədəni təbliğat vasitəsi kimi də istifadə oluna bilər.

Dünya üzrə UNESCO irsinin bəlli bir marşrut xəritəsi var. Azərbaycanda da bu təşkilatın mədəni irs siyahısına daxil olan abidə və qoruqlar var. Turistlər həm də belə yerləri ziyarətə üstünlük verirlər. Ümumdünya Turizm Təşkilatının dərc etdiyi məlumatlara nəzər yetirdikdə görürük ki, mədəni turizm anlayışı festivallar, mədəni tədbirlər, incəsənət təqdimatlarının təşkili, habelə muzeylərin, abidələrin və müqəddəs yerlərin ziyarəti kimi fəaliyyət nəzərdə tutulur.



Ölkə tarixinin tanıdılması, mədəniyyətin təbliği baxımından abidə və qoruqlara turist axınını təşkil etmək xüsusi önəm kəsb edir. Azərbaycanın aidiyyəti qurumları nüfuzlu beynəlxalq tədbirlərdə ölkənin mədəni irsinin təbliği yönündə fəaliyyət göstərirlər. Görülən işlər ölkənin zəngin turizm potensialına diqqəti cəlb etmək baxımından faydalıdır.

Mütəxəssis yanaşmaları göstərir ki, Azərbaycanda mədəni turizmin inkişafı hələ özünün ilkin mərhələsini yaşayır. Turizmin bu növünün üstünlüyü ondadır ki, ilin bütün fəsillərində səyahətçiləri cəlb etmək imkanı yaradır. Ümumiyyətlə, mədəni turizmin dirçəlməsinə xidmət edən layihələrin icrası qeyd olunan sahədə nəzəri və praktiki aspektlərin əsas götürülməsini tələb edir. Paytaxt və regionlarda xeyli tarixi məkanların mövcudluğuna baxmayaraq, ölkəmizdə bu turizm marşrutlarından istifadə əmsalı o qədər də yüksək deyil.

**Ceyhun ALIŞLI**
**XQ**

# Mübarizənin Mübariz örnəyi

**Biləsuvar rayonunda AYB üzvü Müşfiq Malik Muğanlının Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş “Mübarizdən sonra” adlı kitabının təqdimat mərasimi keçirilib.**



Qəhrəmanın doğulub böyüdüyü Əliabad kəndindəki ev-muzeyində mərasimə rayon rəsmiləri, ziyalılar və şəhid valideynləri toplaşmışdılar. Kitabın məsləhətçisi – Mübariz İbrahimovun atası Ağakərim İbrahimov bu kimi kitabların ölkəmizdə gənc nəslə hərbi vətənpərvərlik hisslərinin aşılanmasında əhəmiyyətli olduğunu bildirib.

Kitab iki hissədən, dörd bölmədən ibarətdir. Ayrı-ayrı hissələrdə tanınmışların Mübariz haqqında fikirləri, onun həyat hekayəsi, esse və şeirlər, eləcə də “Müqəddəs Mübarizim” poeması yer alıb. Nəşrin baş redaktoru, AMEA-nin Dilçilik İnstitutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli çıxışında müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, hərbçilərimizin qəhrəmanlığı sayəsində tarixi torpaqlarımızın işğalına son qoyulmasında Mübariz kimi oğulların hünərinin əsl mənəvi təməl rolu oynadığını diqqətə çatdırıb: “Mübariz İbrahimov müasir Azərbaycan gəncliyinə Vətəni necə sevməyi əyani olaraq göstərdi, bu yolda onun rəşadəti əvəzsizdir. Belə nəşrlərin davamı da olacaq”.

Biləsuvar Rayon İcra Hakimiyyəti Başçısının müavini Ləman Yüzbaşova, AYB-in beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, ADPU Cəlilabad filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlı, kitabın redaktoru Famil Burxanoğlu, rayon ziyalıları Rüsətəm Əliyev, Mirhənifə Mirsultanov, Mirsahib Zəkiyev, şəhid atası Rafət İsayev və başqaları çıxış edərək əsərin vətənpərvərlik ədəbiyyatı olduğunu vurğulayıblar.

**Ə.DOSTƏLİ**
**XQ**

# Naxçıvan Kukla Teatrı Çuvaşiyada

**Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı Çuvaşiya Respublikasının Çeboksarı şəhərində “Nağıllar karuseli” adlı V Beynəlxalq Kukla Teatrları Festivalında və “Biz hamımız eyni olmağa məcbur deyilik” adlı teatr-forumda ölkəmizi təmsil edib.**



Xalq artisti Şirzad Abutalıbovun rəhbərlik etdiyi yaradıcı kollektiv festivalda dramaturq Vüqar Haqverdiyevin "Saçları səməni oğlan" tamaşasını nümayiş etdirib. Sənət biliciləri və beynəlmiləl tamaşaçı auditoriyası Naxçıvan truppasının çıxışını alqışlarla qarşılayıblar.

Avqustun 16–19-da keçirilən festival və teatr-forum Çuvaşiya tamaşaçılarında və başqa ölkələrdən olan iştirakçılarda Azərbaycanın kukla teatrı barədə yüksək təəssürat yaradıb.

**S.HƏSƏNOV**
**XQ**

# Şamaxıda tarixi abidələr bərpa edilib



abidənin turistlər tərəfindən ziyarəti üçün müvafiq infrastruktur yaradılıb.

Leyla Əliyeva Şamaxıda Kələxana türbələrində də olub. Türbələrdə arxeoloji tədqiqat işləri 2022-ci ildə başa çatıb. Arxeoloji tədqiqatlar zamanı türbələr və ərazidəki tikililərin tarixinin XII əsrə gedib çıxdığı müəyyən edilib. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şamaxı Rayon İcra Hakimiyyəti tərəfindən Kələxana türbələrində hazırda bərpa və konservasiya işləri aparılır.

Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi ilə son illər Şamaxıda Şahxəndan türbəsi, Pirsaat ziyarətgah kompleksində, eləcə də digər tarixi, dini və mədəni abidələrdə bərpa və konservasiya işləri həyata keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Şamaxıya səfəri zamanı şəhid heykəltəraş Samir Kaçayevin ailəsi ilə görüşüb. Samir Kaçayev 2016-cı il Aprel döyüşləri zamanı qəhrəmancasına həlak olub. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilib.



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qobustan və Şamaxıda bir sıra tarixi abidələrdə aparılmış bərpa işləri ilə tanış olub.**

Qobustanda "Diri Baba" türbəsində olan Leyla Əliyevaya məlumat verilib ki, XV əsrə aid abidə öz unikallığı ilə bütün Qafqaz bölgəsində seçilir. "Diri Baba" türbəsi əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb. Bu tarixi abidə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2022-ci ildə bərpa edilib. Abidənin ətrafındakı qəbiristanlıq və mağaralarda tədqiqat işləri aparılıb. Eləcə də

Leyla Əliyeva Şamaxıda müxtəlif kəndlərin sakinləri ilə də görüşüb.

**XQ**

# Dünən gecə ilin ilk Super Ayı bədirləndi



**Dünən axşam saat 22:26-da Azərbaycan ərazisində 2024-cü ilin ilk Super Ayı müşahidə olundu. Astronomlar Ayın Yer ətrafında bu görünüşünü Mavi Super Ay adlandırırlar.**

Şamaxı Astrofizika Rəsədxanasının mediaya dünənki açıqlamasında bildirilib ki, bu səma hadisəsi zamanı Ay 14 faiz böyük və 30 faiz parlaq görünür. Buna görə də avqustun 19-da Ay saat 19:41-də doğub və səhər saatlarınadək səmada aydın göründü. Bu zaman Yerlə Ay arasındakı məsafə 361,969 kilometrə bərabər oldu.

Xatırladaq ki, Ayın orbiti tam dairəvi deyil, elliptik olduğundan, Yerlə onun bu peyki arasındakı məsafə daim dəyişir. Ay öz perigeyində bədirlənmiş Ay fazasına uyğun gələrsə, o zaman buna Super Ay deyilir. Xalqımız Super Ayı keçmişdə bədirlənmiş, yəni təmiz və işıqlı Ay deyə vəsf edib. İlin sonunadək Super Ay fəzada sentyabrın 18-də, oktyabrın 17-də və noyabrın 15-də də görünəcək.

**XQ**


## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

Heydər Əliyev Beynəlxalq Aeroportu, 2 saylı terminalın 5-ci mərtəbəsi üçün ofis mebellərinin satın alınması məqsədilə açıq tenderin həyata keçirilməsi niyyətindədir.

Bu məqsədlə, "Azərbaycan Hava Yolları" QSC tərəfindən iştirakçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru elan edilir. Qeyd olunan prosedurdan müvəffəqiyyətlə keçən iştirakçılar açıq tender prosedurunda iştirak etmək hüququnu qazanaraq tenderin əsas şərtlər toplusunu əldə edə biləcəklər.

Heydər Əliyev Beynəlxalq Aeroportu, 2 saylı terminalının 5-ci mərtəbəsi üçün ofis mebellərinin satın alınması məqsədilə açıq tenderdə iştirak etmək niyyətində olan iştirakçılar uyğunluğun əvvəlcədən müəyyənləşdirilməsi proseduru üçün nijat.jabbarli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun sənədlər toplusunu əldə edə bilərlər.

Sənədlər iştirakçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi prosedurunun sənədlər toplusunda qeyd olunan qaydalara əsasən təqdim edilməlidir. Qeyd olunan qaydalara uyğun təqdim edilməyən sənədlər geri qaytarılacaqdır.

Prosedur sənədləri sənədlər toplusuna əsasən hazırlanaraq 23 avqust 2024-cü il, saat 17.00-a qədər nijat.jabbarli@azal.az elektron poçt ünvanına təqdim edilməlidir.

Prosedur üzrə nümayəndənin əlaqə məlumatları: mütəxəssis – Nicat Cabbarlı, mobil: (+994) 55 296 76 07.

*Satınalmalar idarəsi*

## "Missiya" ASC səhmdarlarının nəzərinə!

3 oktyabr 2024-cü il saat 15.00-da "Missiya" ASC səhmdarlarının illik ümumi yığıncağı Şəki şəhəri, Məmmədəmin Rəsulzadə küçəsi 3 nömrəli ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

2. ASC-nin idarə heyəti sədrinin seçilməsi.

3. Digər məsələlərin müzakirəsi.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon–050 224- 99 -39.


### Həyat fəlsəfəsi

# Yaddaş – keçmişə aparan "sehrli xalat"

**Yaddaş insanın ən qiymətli sərvətidir. Yaddaşın yoxdursa, keçmişin də yoxdur, o keçmiş ki, insan məhz onun sayəsində həyatı öyrənir, təcrübə qazanır, kamilləşir. Yaddaş insan ömrünü kompakt şəkildə onun beynində saxlayır, insan istədiyi vaxt onu kino lenti kimi geriyə fırladıb xatırladığı fraqmentlərə yenidən nəzər sala bilir. İnsanın evolyusiyası, təkamül prosesi də keçmişin üzərində inkişaf edir.**

Yaddaş həm də maddə ilə anlayış arasındakı vəhdətdən doğan həqiqətlər toplusudur. Əslində, heç nə bizim yaddaşımızdakı kimi deyil. Keçmişdə baş vermiş hansısa bir hadisənin üzərindən zaman keçdikcə o hadisə də köhnə şəkillər kimi saralır, rəngləri itir, təfərrüatlar seyrəlir, sonda solğun, pozuq bir kadra çevrilir və sən onu yüz il əvvəlin kino lenti kimi bir az maraqla, bir az da həyəcanla izləyirsən.



Keçmişlə bağlı xatirələri yazıya köçürərkən hiss edirsən ki, beynin qeyri-ixtiyari hadisələri redaktə edir. Tam səmimi olmağa çalışırsan, bəzən alınır, bəzən yox. Nələrisə təfərrüatı ilə yazmaq özünüzü öz yumruğunuzla yerə yıxmaq deməkdir. Özünüzə qarşı qəddar olursunuz, amma yenə də tam səmimi ola bilmirsiniz. Zamanın dəyişdiyi olaylar yenidən, bu dəfə sizin əlinizlə təhrifə uğrayır. Yanlış anlaşılmaqdan qorxursunuz. Beləliklə, bizim eqomuz xatirələrimizin qatı düşməninə çevrilir.

Öz düşüncələrini dəstəkləmək üçün uydurduqları hekayələrin arxasında gizlənən yazıçılar gerçəyin üzünə dik baxa bilmirlər. İş xatirə, memuar yazmağa gələndə mütləq gerçək hadisələrin onlara toxunan tərəflərini ixtisar edirlər və ya detaldan yan keçirlər. Halbuki hadisənin mahiyyəti məhz o detalda gizlənir. Keçmişin insana utanc gətirən məqamları yazmadıqca yazıçıya iztirab verir, yazdıqda isə onun əleyhinə işləyir.



Bəs nə etməli? Keçmişi tərəfindən rahatlığı pozulan insanların bu keçmişdən xilas olmasının yeganə yolu səmimi etiraflardır.

Bəzən hansısa hadisənin təfərrüatlarını xatırlamaqda çətinlik çəkirsən, o anda təxəyyül köməyə yetir. Bu anda gerçəyin təhrif olunduğunu anlayırsan, amma gerçəyi tam ifadə etmək mümkünsüzdürsə, başqa yol qalmır. Bir dəfə keçmişdə baş vermiş hadisələrlə bağlı yazı yazmaq istəyirdim, bu hadisələrin hansının gerçək, hansının uydurma olduğunu ayırd etməkdə çətinlik çəkirdim. Uzaq keçmişdə qalmış hadisənin bəzi məqamlarını dəqiqləşdirmək üçün yaxın qohumlardan biriylə söhbət etdim, qəribədir, o, həmin hadisəni mən xatırladığımdan tamamilə fərqli formada xatırladı və onun dediklərinin dəqiq olduğunu əminliklə vurğuladı.

Görəsən, mənim yaddaşımda o əhvalat niyə başqa biçimdə qalıbmış? Yoxsa zaman bizdən xəbərsiz hadisələri kollaj edir? Çox vaxt söhbət əsnasında keçmişlə bağlı əhvalatları xatırlayanda adları, məkanları belə qarışıq salırıq, hətta mübahisə etməkdən belə çəkinmirik. Bəlkə elə qarşı tərəf də hansısa məqamda yanlışa yol verir?

Hə, yaddaş olduqca mürəkkəb mexanizmdir. Kompüter yaddaşının tutumu olduğu kimi insan yaddaşının da ölçüsü var. Alimlər müəyyən edib ki, beynin sağ və sol yarısı quş qanadına bənzəyir. Sağ hissə məlumatı həkk edir, sol hissə isə xəyal gücü və romantik əlaqələr üçün istifadə olunur. Deməli, yaddaş qutusu insan beyninin sağ yarımkürəsində yerləşir. Çox qəribədir ki, biz yaddaş qutusuna yığılan keçmişi beynin sol yarımkürəsində yerləşən xəyalın gücüylə yenidən canlandıra bilirik.

Biz informasiya əsrində yaşayırıq və yaddaşımız həddən artıq yüklənmiş vəziyyətdədir. Beynimiz hər gün onlarla informasiya qəbul edir və sözsüz ki, yaddaş bu informasiyaları özündə saxlaya bilmir. Deyilənə görə, Avropa alimləri müasir texnologiyaların köməyi ilə insan yaddaşının yaxşılaşmasına şərait yaradan yeni proqram hazırlayıblar. Əslində, zəifləyən insan yaddaşı deyil, gün ərzində sel kimi axıb gələn informasiya axını yaddaşa təzyiq göstərməkdədir. Texnologiya nə qədər inkişaf etsə də, insanın təbii yaranışına hansısa detalı əlavə edə bilməz. Texnologiya yalnız robot yarada bilir, robotun isə yaddaşı olmur.

Söz və rəsm yaddaşı maddiləşdirən yeganə üsullardır. Biz keçmişi yalnız sözlər və rəsmlər, şəkillər, filmlər vasitəsilə "geri" qaytara bilirik. Beynimizin labirintlərində dolaşırıq, unudulmayan xatirələr bizi keçmişə doğru sürükləyir. Tək bircə görüntü keçmişin sərt qabığını parçalayır və içindən çoxdan unutduğunuz adamlar, cizgiləri itməkdə olan küçələr çıxır. Yaddaşımızın bizi keçmişə daşıyan gücü bəzən zəifləyir, hansısa hadisəylə bağlı ən vacib detalı unuduruq.

Bir müddət keçəndən sonra qatarda və ya avtobusda gedərkən, yaxud sakit bir guşədə kitab oxuyarkən qəfildən həmin təfərrüatı xatırlayırsınız. Gördüyünüz bir adam, bir məkan, oxuduğunuz kitabdan hansısa söz, fikir sizə ipucu verir. Yaddaşınızın itirdiyiniz guşəsi işıqlanır və siz hər şeyi aydınlığı ilə xatırlayırsınız.

Yaşı 70-80 civarında olan bir ixtiyarın yaddaşında iki-üç xatirə qalır ki, qarşısına çıxan hər kəsə o hadisələri danışır. O hadisələr o qədər təkrar danışılır ki, boyatlaşır. O, ağzını açanda artıq bilirsən ki, hansı hadisəni danışacaq. Mexaniki şəkildə təkrarlanan bu bir ovuc xatirə ixtiyar adamın qos-qoca ömründən qalan yeganə mirasdır. Keçmişindən bir-iki boyat xatirə qalan qocalar o hadisələri təsbeh kimi bütün günü o üz-bu üzə çevirirlər. Belə insanlarla tez-tez qarşılaşırıq və hər dəfə əli həyatdan, keçmişdən üzülməkdə olan, ölümün soyuq nəfəsi üz-gözündə dolaşan ixtiyar insanları görəndə həyatın amansızlığı, etibarsızlığı, ömrün faniliyi içimi üşüdür...

Yaddaş sözlər vasitəsilə mənim yaşadığım, mənim gördüyüm tarixi fiksə edir. Təkcə mənim yox, həm də Bakının dünəni və bu gününün tarixini...

Bu gün həm də gələcəyin tarixidir, gələcək həm də keçmişə görə var olacaq. Bugünümüzə keçmişin sayəsində gəlib çıxmışıq. Həm də insanın həmişə keçmişə ehtiyacı var, o, keçmişindən heç də asanlıqla qopmur. Zaman bizi keçmişdən ayırsa da, xəyal bizi həmişə geriyə qaytarır. Fantaziyamız itirilmiş zamanı yaddaşımızda bərpa edə bilir. Yazılan kitablar da bizi keçmişə aparan "sehrli xalat" misalındadır. Bu baxımdan, yəqin ki, yazdıqlarımızda bir fayda var. Hər halda yazılan qalır.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 177 (30581) 20 avqust 2024-cü il, çərşənbə axşamı

## "Dinamo" – "Qarabağ": hakimlər bəllidir



**"Qarabağ"ın UEFA Çempionlar Liqasının pley-off mərhələsində Xorvatiyanın "Dinamo" klubu ilə keçirəcəyi ilk oyunun hakimlərinin adları açıqlanıb. Zaqrebdəki görüş İsveçdən olan hakimlər briqadasına həvalə edilib.**

Qarşılaşmanın baş hakimi Qlenn Nyuberqdir. Ona Mahbod Beiqi və Andreas Söderkvist kömək edəcəklər. Dördüncü hakim funksiyasını Adam Ladebak yerinə yetirəcək. Almaniyalı Bastian Dankert və onun həmyerlisi Yohan Pfeyfer VAR hakimi olacaqlar.

Qeyd edək ki, isveçli Qlenn Nyuberq daha əvvəl də Azərbaycan çempionunun oyununa təyinat alıb. Belə ki, 35 yaşlı referi 2021/2022 mövsümündə Konfrans Liqasının III təsnifat mərhələsində "köhlən atlar"ın səfərdə Kiprin AEL komandasına qarşı görüşündə hakimlik edib. O, oyunun 80-ci dəqiqəsində zədələnib və matçı davam etdirə bilməyib.

Matç bu gün Bakı vaxtilə 23:00-da başlayacaq.

## "Real" qələbə qazana bilməyib



**"Real" İspaniya çempionatının ilk turunda qələbə qazana bilməyib. Karlo Ançelottinin rəhbərliyi altında ilk dəfədir ki, belə hal baş verir. Görüş 1:1 hesabı ilə başa çatıb.**

Hesabı matçın 13-cü dəqiqəsində "Kral klubu"nun hücumçusu Rodriqo açıb. Fasilədən səkkiz dəqiqə sonra "Malyorka"nın hücumçusu Vedat Muriqi tablodakı yekun rəqəmləri müəyyənləşdirib. "MisterChip" xəbər verir ki, Madrid təmsilçisi heç-heçə ilə başladığı 1931/1932, 1985/1986, 1988/1989, 1996/1997 və 2006/2007 mövsümlərində çempionluq yaşayıb.

"Real" növbəti matçında doğma meydanda "Valyadolid"i qəbul edəcək. Bu, avqustun 25-də La Liqanın 2-ci turu çərçivəsində baş tutacaq.

## İngiltərə futbolunun "ən yaxşısı"



**"Mançester Siti" klubunun belçikalı yarımmüdafiəçisi Kevin De Bruyne İngiltərə Premyer Liqası tarixinin ən yaxşı yarımmüdafiəçisi seçilib. Sorğunun nəticələrinə görə, ikinci pillədə "Liverpul"un keçmiş yarımmüdafiəçisi Stiven Cerrard qərarlaşıb. İngiltərə futbolunun digər məşhur siması, "Çelsi", "Vest Hem" və "Mançester Siti" kimi klubların formasını geyinmiş Frenk Lempard ilk üçlüyü tamamlayıblar.**

Bu arada "Mançester Siti" ilə bağlı daha bir maraqlı məlumat yayılıb. Bildirilib ki, "Barselona"nın yarımmüdafiəçisi İlkay Gündoğan "Mançester Siti"yə qayıtmaqda maraqlıdır. Almaniyalı futbolçu artıq "Mançester Siti" ilə əlaqə saxlayıb. "Şəhərlilər"in rəhbərliyi bu variantı nəzərdən keçirməyə hazırdır.

Qeyd edək ki, İngiltərə Premyer Liqasında 2024/2025 mövsümünə avqustun 16-da start verilib.

*Hazırladı:*
*PÜNHAN*
*XQ*

Maraq dünyamız

# Paytaxtı olmayan liliput dövlət

## Yaxud yüz illərin işğalı altında insanların Allah sevgisi



**Alman alimi Paul Hambrux hələ 1910-cu ildə sübut etmişdi ki, bu liliput dövlətdə (dünya ensiklopediyalarında onun adı kiçik dövlət kimi yox, məhz liliput dövlət (карликовое государство) şəklində göstərilir) yaşayan naurular haqqında olan məlumatların, təxminən, 3 min illik tarixi var. Bu uzun tarixin, demək olar ki, 99 faizini işğal altında olublar. 1968-ci il yanvarın 31-də Böyük Britaniya, Avstraliya və Yeni Zelandiyanın (eyni vaxtda 3 dövlətin nəzarətində idi) müstəmləkəsindən azad ediləndən sonra yaratdıqları dövlətin "Nauru mahnısı" adlı himni isə belə başlanırdı: "Allahın iradəsi hər şeydən üstündür".**

Cəmi 21,3 kvadratkilometr ərazisi, 11 min nəfərə yaxın əhalisi olan bu parlamentli respublikanın rəsmi paytaxtı yoxdur. Ən böyük şəhəri olan Yarendən elə paytaxt kimi istifadə edirlər. Yəni prezident də, parlament də, aeroport da həmin şəhərdədir. Dövlət dili ingilis dili olduğuna hmin də ingiliscədir. Milli valyutaları olmadığına görə isə Avstraliya dollarından istifadə edirlər.

Rəsmi adı Nauru Respublikası olan bu dövlətin yerləşdiyi eyni adlı ada (orta əsrlərdə ingilislər ona "dadlı, ləzzətli ada" deyirlərmiş) Sakit okeanın qərb sahillərinə yaxındır. Ekvatordan isə cəmi 42 kilometr cənubdadır (https://govno13579.ucoz.org/news/2016-01-08-2,). BMT-nin məlumatına görə, Nauru planetimizin ən kiçik müstəqil dövləti, ən kiçik ada dövləti, Avropa hüdudlarından kənardakı ən kiçik ölkə və nəhayət, İsveçrədən sonra rəsmi paytaxtı olmayan ikinci dövlətdir.

Bu dövlət həm Birinci, həm də İkinci dünya müharibələri dövründə dəfələrlə əldən-ələ keçmiş, Avropanın, demək olar ki,




əksər ölkələrinin müstəmləkəsi olmuşdur. 1999-cu ildən BMT üzvü olan Nauru həm də Cənubi Sakit Okean Komissiyasının üzvüdür.

Hər halda, "Allahın iradəsi hər şeydən üstündür".

*İttifaq MİRZƏBƏYLİ*

## 127 min uşaq I sinfə gedəcək



**Bu il mayın 1-dən bu günə qədər, ümumilikdə, 127 mindən çox uşaq I sinfə qəbul edilib. Bu barədə mətbuata Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.**

Xəbərdə qeyd edilir ki, 2024–2025-ci tədris ili üçün birinci sinfə qəbulu proqnozlaşdırılan məktəbyaşlı uşaqların sayı ilə qeydiyyatdan keçənlərin sayında fərq müşahidə edilir.

Agentlik valideynlərə müraciət edərək bildirib ki, tədris ili yaxınlaşdıqca ümumi təhsil müəssisələrində uşaqların qeydiyyatının aparılması, sənədləşmə işlərinin dəqiq və vaxtında başa çatdırılması baxımından bu mərhələnin əhəmiyyəti vacibdir.

*XQ*

# Antarktida altında "Dərin göl"



**Sidney Texnologiya Universiteti və Niderland Kral Dəniz Tədqiqatları İnstitutunun alimlərindən ibarət qrup Antarktidanın buzlarında yırtıcı mikroorqanizmlər aşkar ediblər. Mütəxəssislər bu barədə "Nature communications" üçün hazırladıqları məqalədə yazıblar.**

Onların fikrincə, Antarktidanın sərt iqlim şəraitində mövcud olan qədim mikroorqanizmlər xüsusi formada parazitar yırtıcılar kimi çıxış edə bilər. Tədqiqatçılar Antarktidanın dərinliklərində ekstremal şəraitdə uğurla sağ qalan təkhüceyrəli orqanizmlərdən ibarət "Arxeylərin evi" adlanan "Dərin göl"ün olduğunu bildiriblər.

Alimlər qeyd ediblər ki, göldə aşağı temperatur və yüksək duz tərkibinə baxmayaraq, mikroorqanizmlər nəinki sağ qalır, həm də asanlıqla yırtıcı davranış nümayiş etdirirlər. Bu davranış arxeylərdə əvvəllər heç vaxt rastlaşmayıb.

Mütəxəssislərin fikrincə, bu arxeylər müəyyən canlıların ana hüceyrələrinə nüfuz edərək onları məhv edə bilir. Bu davranış da bəzi viruslara bənzəyir.

*XQ*

## Türkiyə portalları İsi Məlikzadəni yad edib

**Türkiyənin populyar "Detay haberler", "Haber 232" portalları Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində tanınmış Azərbaycan yazıçısı İsi Məlikzadənin türk dilinə uyğunlaşdırılmış "Talisman" hekayəsinin yayımına başlayıb.**




Tərcümə Mərkəzindən mətbuata bildirilib ki, hekayəni türk dilinə uyğunlaşdıran mərkəzin türk dili mütəxəssisi Sənan Nağıdır.

Geniş oxucu auditoriyasının izlədiyi portallar mütəmadi olaraq səhifələrində Nizami Gəncəvi, Yunis Əmrə, Mixail Lermontov, Edqar Allan Po, Frans Kafka, Alber Kamyu kimi dünyaşöhrətli yazıçı və şairlərin yaradıcılığına yer ayırır.

*AYTƏN*
*XQ*

# Aranda günəşli, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 20-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.**

Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin



gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° , gündüz 31-36° , dağlarda gecə 11-16° , gündüz 17-22° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

İsrafil, Mədət və Gəray Qurbanovlar, Faiq və Fuad Babayevlər, Tahir Rüstəmov, Əkrəm Qaflanov, Qəmbər Bəybalayev, Fəxrəddin Əliyev, İmaməddin Zəkiyev, Rövşən Alimov, Laçın Səfərəliyev, Rafiq Əsgərov və Nəzər Əsədullayev ailə üzvləri ilə birlikdə tanınmış şərqşünas alim, şair-tərcüməçi

**ŞAHİN FAZİL FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və bölmənin kollektivi tanınmış tarixçi alim, AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor

**ŞAHİN FAZİL FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşları Eynulla Mədətli, Rəna Mirzəzadə, Ziba Ağayeva, Füzuli Qurbanov və Qabil Camalzadə tanınmış tarixçi və şair, professor

**ŞAHİN FAZİL FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3685
SİFARİŞ 1866
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00